# İMAM XOMEYNİ YOLU

Ayətullah Xameneinin sözlərində

İmamın özü, rəftarı və sözləri ən dəyərli meyardır. Xoşbəxtlikdən, imamın sözləri mövcuddur, yazılmışdır. İmamın vəsiyyətnaməsi onun inqilabın gələcəyinə dair bütün düşüncələrini açıq şəkildə ortaya qoyur. Bu meyarların səhv izah olunmasına, yaxud gizlədilməsinə və ya unudulmasına imkan vermək olmaz. Əgər biz bu meyarları pis izah etsək, səhv göstərsək, sanki yolda kompası itirmişik, yaxud kompas xarab olub.

## Birinci fəsil: İmam Xomeyni və xalq

### Xalqın imama sevgisi

Vəfatından 21 il ötsə də, xalq imamı çox sevir. İmam inqilab tərənnümü, din tərənnümüdür. O, bizi tanış etdiyi, çağırdığı və istiqamətləndirdiyi amalların timsalı, xalqı təkamul və tərəqqi zirvələrinə aparan bələdçi idi. Xaıqın belə bir insana hörmət etməsi bu amallara hörmət etməsi deməkdir. Bu amallar hər bir xalqın xoşbəxtliyini təmin edən amillərdir.

İslami Şura Məclisinin deputatları ilə görüşdə çıxışından, 2010

**İmam bir meyarda**

Bu baxış ona görə əhəmiyyətlidir ki, bütün böyük ictimai dəyşikliklərin, o cümlədən inqilabların ən böyük problemi onların əsas istiqamətlərini qorumaqdır. Hər bir böyük ictimai dəyişikliyin məqsədləri var, onlara doğru hərəkət və dəvət edir. Bu istiqamətlər qorunmalıdır. Hər hansı bir inqilabda və ya ictimai hərəkatda məqsədlərə doğru istiqamətlər qorunmasa, öz əksinə çevrilər və məqsədlərinin əks istiqamətinə doğru gedər.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Yayınmaya qarşı meyar**

İnqinlabın əsl mahiyyətini dəyişdirmək istəyənlər adətən, açıq şəkildə və bayraq götürərək bu işi görmürlər; elə addım atmırlar ki, inqilab kimliyinə qarşı çıxmaqları bəlli olsun. Onlar bəzən inqilabı müdafiə adı altında elə işlər görür, elə hərəkətlər edir, yoldan elə yayınırlar ki, inqilab öz istiqamət və məqsdlərindən tamamilə uzaqlaşır. Bu yanlış istiqamətlənmə və yayınmanın qarşısını almaq üçün müəyyən meyarlara ehtiyac var. Yolda meyarlar olmalıdır. Bu meyarlar açıq-aydın və hamının gözü önündə olduqda yoldan yayınma baş verməz, kimsə yoldan yayındırmağa çalışsa da, xalq tərəfindən tanınar. Amma meyar olmasa, ciddi təhlükə yaranar.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Nur kəlamı**

Həmişə irəliləmək haqda düşünün, geriyə qayıtmayın. Düşüncə və ya əxlaqda tənəzzül geriyə qayıtmaq və irtica deməkdir...

Doğru yol insanlıq, kamillik və Allah yolu olan İslam yoludur. Üç yol mövcuddır: biri doğru yol, biri şərqdəki qəzəbə gəlmişlərin, biri də qərbdəki yolunu azmışların yolu. Siz isə ədalət, insanlıq, İslam uğrunda fədakarlıq və islami ədalət yolu olan doğru yolu seçin. Oyan-buyana, şərq və qərbin azğın məktəblərinə yayınmadan bu doğru yolla getsəniz, Allaha çatarsınız. Əgər bu dünyada doğru yolda olsanız, o dünyanın Sirat körpisindən də keçərsiniz. Cəhənnəm bü dünyanın batinidir. Bu dünyada sağa-sola yayınmadan düz getsəniz, o dünyada da sağa-sola əyilmədən Sirat körpüsündən keçəcəksiniz. Sola da əyilsəniz cəhənnəmdir, sağa da əyilsəniz. Allahın yolu düz yoldur.

İmam Xomeyninin silahlı qüvvələrlə görüşdə çıxışından, 1970

**İmamın ardıcıllarının vəzifəsi**

Bu gün bu böyük ustadın şagirdləri olan bizlərin və bütün xalqın vəzifəsi nədir? Biz bilməliyik ki, bütün dünya İran xalqına baxır; necə ki, ötən il bu vaxtlar dünyanın bütün diqqəti Tehrana yönəlmişdi. Xəbər dünyaya yayıldıqda dost və düşmənlər heyrətə düşdülər: dostlar bir səbəbdən, düşmənlər bir səbəbdən.

Biz elə düşünməyək ki, bir il keçdiyinə görə vəzifəmizin əhəmiyyəti və həssaslığı azalıb. Xeyr, zaman keçdikcə onun vasitəsilə hidayət olmuş şəxslərin məsuliyyəti də ağırlaşır. Biz bilməliyik ki, yaralı düşmənlər pusquda durub bizim bir an diqqətsizlik etməyimizi gözləyirlər. Onlar İslamın dünyada məhv olmasına ümid edirdilər, amma əksinə, İslam dini dünyada hər gün daha çox yayılır.

İmam Xomeyninin vəfatının birinci ildönümündə çıxışından, 1980

**İmamın sözü və rəftarı: ən yaxşı meyar**

Ən yaxşı meyar imamın özü və xəttidir. İmam bizim üçün ən yaxşı meyardır. Biz bütün fərqlərinə rəğmən, onu müqəddəs Peyğəmbərə (s) bənzədə bilərik. Quran buyurur: “Həqiqətən Allahın Rəsulu sizin üçün, Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!”[1]. Peyğəmbərin (s) özü, onun rəftarı, əməli və əxlaqı nümunədir. Yaxud başqa bir şərafətli ayədə buyurur: “İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir”[2]. İbrahim (ə) və onun dostları örnəkdirlər. Burada İbrahim peyğəmbərin (ə) dostları da qeyd olunub. Kimsə deyə bilməz ki, Peyğəmbər (s), yaxud İbrahim (ə) məsum idi və biz onlar kimi ola bilmərik. Xeyr! “İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir. O zaman onlar öz qövmlərinə belə demişdilər: “Şübhəsiz ki, bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə (bütlərlə) heç bir əlaqəmiz yoxdur. Biz sizi (dininizi) inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!”

Bu məktəbin şagirdi və böyük peyğəmbərlərin davamçısı olan Böyük İmam üçün də bu sözü söyləmək olar. İmamın özü, rəftarı və sözləri ən dəyərli meyardır. Xoşbəxtlikdən imamın sözləri mövcuddur, yazılmışdır. İmamın vəsiyyətnaməsi onun inqilabın gələcəyinə dair bütün düşüncələrini açıq şəkildə ortaya qoyur. Bu meyarların səhv izah olunmasına, yaxud gizlədilməsinə və ya unudulmasına imkan vermək

---

[1] Əhzab/21
[2] Mümtəhinə/4

olmaz. Əgər biz bu meyarları pis izah etsək, səhv göstərsək, sanki yolda kompası itirmişik, yaxud kompas xarab olub. Fərz edin bir dənizdə, yaxud səhrada insanın kompası sınır və xarab olur. Bu zaman yolu təyin etmək olmaz. Əgər imamın fikirləri pis bəyan olunsa, pis izah olunsa, sanki kompas xarab olur və yol itir; hər kəs öz fikri və istəyi ilə bir söz danışır. Bu arada bədxahlar da fürsətdən istifadə edir və xalqı çaşdırmaq üçün yolu yanlış izah edirlər.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Xalqın taleyinə diqqət**

Böyük İmamın böyük hünəri bu idi: həmin fəsadlı quruluşun yerinə bu ölkədə elə bir siyasi quruluş yaratdı ki, onda xalqa etinasızlıq əvəzinə xalqa eşq hakimdir, xalqın, xüsusən də gənclərin taleyinə diqqətsizliyin yerinə xalqın və gənclərin taleyinə eşq, onlara qeyri-adi diqqət əhəmiyyət kəsb edir, əcnəbilər qarşısında özünə inamsızlığın yerinə xalqın özünəinamı günbəgün inkişaf edir, əcnəbilərdən siyasi, iqtisadi və mədəni asılılığın əvəzinə siyasi, iqtisadi və mədəni müstəqillik məqsəd seçilir.

Böyük Rəhbərin İmam Xomeyninin məqbərəsi ziyarətçilərinin toplantısında çıxışından, 1997

**İctimai ədalət**

İmamın xəttinin bir xüsusiyyəti ictimai ədalət, yoxsul və məhrum təbəqələrə yardımdır. İmam haqlı olaraq onları inqilabın və ölkənin sahibi bilir, xalqın qələbəsində ən mühüm amil sayırdı. Qeyd etdiyimiz kimi, imam sözlə kifayətlənmədi, inqilabın əvvəlindən Quruluş cihadı, İmdad komitəsi, Məhrumlar, On beş xordad və Məskən fondlarını yaratdı, hökumətlərə ciddi tapşırıqlar verdi. İctimai ədalət əsas şüarlardandır. Bunu ikinci dərəcəli saymaq və kənara qoymaq olmaz.

Tehranda cümə xütbəsindən, 1999

**İmam və məzlumlar**

İmam İslamın unudulmuş həqiqətlərini dirçəltdi, azadlıqsevərliyini ucaltdı, ayrıseçkiliyə, təbəqələrarası fərqlərə və zadəganlığa müxalif olduğunu aşkara çıxardı. Böyük İmam ömrünün son günlərinə qədər məzlum, məhrum və yoxsul təbəqələrə xüsusi diqqət yetirdi. İslam quruluşu yarananda və İslam quruluşunun rəhbəri vəzifəsində çalışdığı səmərəli on il boyu məmurlara və hamıya tapşırdı ki, zəif təbəqələrə qayğı göstərin, siz bu ölkənin yoxsul təbəqəsinə borclusunuz. Mənim əzizlərim! Böyük İran xalqı! Biz harada və hansı işdə imamın bu tövsiyəsinə diqqət yetirdiksə, proqramlarda, qanunlarda, icra işlərində, vəzifəyə təyin etmələrdə bu nəsihətə əməl etdiksə, işlərimiz uğurlu oldu.

İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin vəfatının on dördüncü ildönümü tədbirində çıxışından, 2003

**İmam Xomeyninin vahid istiqamətə dair tövsiyəsi**

Həm Quranın bizə xatırlatdığı, həm tarixin öz ibrətləri ilə öyrətdiyi, həm də imamın dəfələrlə tapşırdığı mühüm tövsiyə budur ki, səsimiz, dəvətimiz və şüarlarımız bir-birilə ziddiyyət təşkil etməsin. Bizim hazırkı vəzifəmiz budur ki, müxtəlif sahələrdə təcavüzkar düşmənlər qarşısında vahid istiqaməti qoruyaq. Bir çox xırda məsələlərdə fikir ayrılıqları və üslub fərqləri, quruluşun əsasına aid olmayan bəzi mübahisələr var və gözləniləndir; belə fikir ayrılıqlarının və üslub fərqlərinin heç bir eybi yoxdur. Eybi olan budur ki, hətta bundan da kiçik fikir ayrılıqları və mübahisələr düşmənin gözü önündə bir-birinə qarşı durmağa, düşməni unutmağa gətirib çıxarsın, bəzən də ailədaxili dartışma əsnasında düşmənə bir göz də vursunlar, açıq şəkildə və ya gizlicə sevgi də göstərsinlər. Pis olan budur. Biz ölkənin siyasi cinahlarını bundan uzaq durmağa çağırırıq. Mübahisə və müzakirələr isə var, həmişə olub və olacaq. Bunların dövlətə ciddi təhlükəsi yoxdur.

Böyük İnqilab Rəhbərinin Dini Ekspertlər Məclisinin üzvlərilə görüşdə çıxışından, 2003

**Nur kəlamı**

İnqilab daxilində təfriqə və ixtilaf yaradıb, onu dəfn etmək, sonra da özlərindən birini ortaya çıxarıb çevriliş etmək və öncəki vəziyyəti qaytarmaq istəyirlər. Xalqımız bu aydın məsələni unutmamalıdır.

Orduda, polisdə, Muhafizəçilər korpusunda, müxtəlif komitə və idarələrdə belə adamlar var. Onlar o vaxtkı mənafelərini geri almaq üçün şah rejiminə oxşar bir hakimiyyətin qurulmasını istəyirlər. Bir qismi də böyük güclərdən ibarətdir. Onların da maraqları əllərindən alındığına görə bu tezliyə əl çəkən deyillər. Müxtəlif yollarla bütün təbəqələrə nüfuz edib ixtilaf salırlar. Bunlar bu qələbənin xalqın birliyi və Allaha arxalanması nəticəsində əldə edildiyini gördülər və bilirlər ki, bu iki məsələ - xalqın birliyi və Allaha arxalanması davam etsə, sonrakı qələbələr də hasil olacaq və onların əli İrandan birdəfəlik üzüləcək.

Bacardıqları qədər qorxudurlar, tamahlandırırlar. Bütün planları budur ki, hərəkatı irəliyə aparan cəhətini əlindən alsınlar, sözbirliyini, İslamı alıb onu tərk-silah etsinlər.

İmam Xomeyninin Neft şirkətinin əməkdaşları ilə görüşdə çıxışından, 1979

**İmamın siyasi məktəbinin xüsusiyyəti**

İmamın siyasi məktəbinin xüsusiyyəti kimi demək istədiyim son məsələ ictimai ədalət məsələsidir. Bizim böyük imamımızın siyasi məktəbində ən mühüm və əsas xətlərdən biri ictimai ədalətdir. Hökumətin bütün proqramlarında, qanunvericilikdə, icrada və məhkəmədə ictimai ədalət və təbəqələrarası fərqi azaltmaq diqqətdə saxlanmalı, məqsəd seçilməlidir. Biz ölkəni varlandırsaq, yəni ümumi daxili məhsulu artırsaq, amma sərvətlər bir qrupun xeyrinə olan müəyyən bir yerdə cəm olsa və xalqın çoxu ondan bəhrələnməsə, bu, imamın siyasi məktəbinə uyğun olmaz. Xalq arasında iqtisadi fərqləri azaltmaq, müxtəlif təbəqələr arasında müxtəlif milli sərvətlərdən istifadədə ayrıseçkiliyi aradan qaldırmaq bizim ən mühüm və ən çətin vəzifəmizdir.

İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışından, 2004

**İmamın müraciət tərəfi**

İmamın siyasi söz və ideyasında müraciət tərəfi bütün bəşəriyyətdir, yalnız İran xalqı deyil. İran xalqı bu sözü ürəkdən dinlədi, arxasında dayandı, onun üçün mübarizə apardı, öz müstəqilliyini və başucalığını əldə etdi. Amma bu sözün müraciət tərəfi bütün bəşəriyyətdir. İmamın siyasi məktəbi bu xeyri, müstəqilliyi, başucalığını və imanı bütün İslam ümməti və bütün bəşəriyyət üçün istəyir. Bu bir müsəlmanın üzərinə düşən missiyadır. İmamla özlərinə beynəlxalq missiya tanıyan digər şəxslərin fərqi bundadır ki, imamın siyasi məktəbi bir xalqı topla, tankla, silah və işgəncə ilə öz düşüncəsinə və yoluna inandırmaq istəmir.

İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışından, 2004

**Nur kəlamı**

Ey dünya məzlumları! Ayaqa qalxın və özünüzü cinayətkar zalımların caynağından xilas edin. Ey dünyanın hər tərəfində olan qeyrətli müsəlmanlar! Qəflət yuxusından ayılıb İslamı və İslam ölkələrini müstəmləkəçi və aslı qüvvələrin əlindən qurtarın. Ey şərafətli İran xalqı! İslam hərəkatınızı davam etdirin, özgələrə gələcəyinizə müdaxilə icazəsi verməyin və talançılığa əbədi olaraq son qoyun.

İmam Xomeyninin Məzlumlar Bəsici həftəsi münasibətilə çıxışından, 1980

**İmam Xomeyninin İslam ümməti arasında yaşaması**

Bizim böyük imamımızı tarixə və keçmişə aid bir şəxs kimi təqdim etməyə çalışanlar istədiklərinə nail olmayacaqlar. İmam öz siyasi məktəbi ilə yaşayır. Bu məktəb yaşadıqca imam İslam ümmətinə və hətta bütün bəşəriyyətə böyük və həmişəyaşar təsirlər bağışlayacaq.

İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışından, 2004

**İmamın yolunun xalq tərəfindən unudulmaması**

İmamı sevənlərin, onun ardıcıllarının imamdan danışması yalnız ona təşəkkür etmək və ya gözəl bir həqiqəti tərifləmək məqsədilə deyil, onlar bu yolun yaşamasını və bu bayrağın doğru yol axtaranlara işıq saçmasını istəyirlər. Hamımız imam haqda belə düşünməliyik. Bu ölkədə imamın əsaslarına və getdiyi İslam yoluna qarşı çıxanlar bu yolu itirmək üçün imamı unutdurmağa çalışdılar. Bu gün ölkəmizin səadəti imamın yoluna davamla mümkündür. Bu gün bu xalqın haqlı amalları imamın xətti və yolu ilə təmin olur. Bunu mən dəqiq araşdırma və faktlarla deyirəm.

Bu gün inqilabın tərif etdiyimiz məqsədlərini imamın yolu ilə davam etdirməliyik: açıq şəkildə, tam izahla və lazımi cəsarətlə. Bilməliyik ki, bizi düşmən qarşısında saxlayan, müstəqilliyimizi, azadlığımızı və kimliyimizi qoruyan budur. Əgər bu xalq ölkəsinin gözəlləşməsini, elmdə inkişaf etməsini, dünyanın müxtəlif problemləri - ticarət, kənd təsərrüfatı və digər problemlər fonunda tərəqqisini istəyirsə, imamın yolunu davam etdirməlidir. Ona görə ki, bu xətt müstəqillik, özünəqayıdış yolu və insanların daxilində olan istedad xəzinələrini üzə çıxaran bir yoldur.

Böyük Rəhbərin İmam Xomeyninin vəfatı ilə bağlı tədbirlərin Təşkilat komissiyasının üzvlərilə görüşdə çıxışından, 2005

**Seçkilər – İmamın xalqa hədiyyəsi**

Seçkilər İslamın xalqımıza hədiyyəsidir. Böyük imamımız bizə seçkili İslam hakimiyyətini öyrətdi. İslam dövləti yaddaşlarda sülalə xilafətləri formasında qalmışdı. Elə bilirdilər ki, İslam dövləti Bəni-Ümməyə, Bəni-Abbas, yaxud Osmanlı xilafəti kimidir: bir nəfər xəlifə adını alır, əslində və əməldə isə fironluq və şahlıq edir. Dünyadan köçəndə də bir nəfəri öz yerinə təyin edir. Dünya xalqlarının zehnində İslam hökuməti bu formada canlanırdı. Bu, İslama və İslam hökumətinə ən böyük hörmətsizlikdir. İmam xalqın seçkisi, iştirakı olan İslam hökumətini növbəti dəfə xalqımıza izah etdi və cəmiyyətimizdə həyata keçirdi.

Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ildönümü mərasimində çıxışından, 2005

**Qələbələrin bədəli**

Bəzən düşünürdülər ki, dinin hökmlərinə, insanların can və mallarına qarşı bu qədər diqqət və əhəmiyyətlə yanaşan imam inqilabda və muharibədə çoxlu şəhid verdiyimiz halda dünyadan necə rahat şəkildə köçə bilər?! Deyirdilər ki, bu qanların cavabını kim verəcək? İmamın cavabı bu idi ki, bu qanların cavabını Siffin və Nəhrəvanda tökülən qanların cavabını verən adam verəcək. Bu çətinliklərin cavabını İmam Əlinin əzab və çətinliklərinin cavabını verən adam verəcək. Bir xalqın qurtuluşu üçün baş vermiş inqilabın bədəli vardır; bir xalqın müstəqilliyini qorumaq üçün edilmiş səkkizillik müharibənin bədəli vardır; öz hüquqları uğrunda dünya hegemonlarına qarşı dirənişin bədəli vardır.

İmam Xomeyninin vəfatının on səkkizinci ildönümü tədbirində çıxışından, 2007

**Nur kəlamı**

Cavanlarınızın qanı İslam yolunda töküldü. İndi biz İslamın yaratmaq istədiyi, Peyğəmbərin və Əlinin vaxtında da mövcud olmuş vəziyyətdən haradasa toplaşıb çay və qəhvə içən, sonra da nə isə yazan bir neçə nəfər üçün əl çəkməli, tökülmüş qanları hədər verməli və İslamı kənara qoymalıyıq?!

İmam Xomeyninin Babul rayonunun Korpus mühafizəçilərilə görüşdə çıxışından, 1979

**Hamı imamın övladıdır!**

İslam dünyasının dəyərli şəhidləri və bir neçə gün öncə sionistlərin əlilə şəhadətə qovuşan əziz şəhidimiz özlərini imamın övladı hesab edir, bununla fəxr hissi keçirirdilər. Şəhid Hacı İmad özünü imamın övladı bilirdi. O, iranlı bir gənci imama özündən daha yaxın hiss etmirdi. O da özünü iranlı bir gənc qədər imamın övladı və ona yaxın hesab edirdi. Niyə? Ona görə ki, imam ona ruh vermiş, onu diriltmişdi. Livanda, Fələstində, Qəzzədə - hər yerdə və həmişə belə gənclər olmuşdur, amma bu qədər böyük işlər görməmişdilər.

Azərbaycan əhalisinin müxtəlif təbəqələrinin nümayəndələrilə görüşdə çıxışından, 2008

**İmamın məmurlarla xalqın həmrəyliyi üzərində təkidi**

Bu ölkə məmurların birliyi, həmrəyliyi, xalqın məmurlarla həmrəyliyi və İran xalqının möhtəşəm birliyi ilə inkişaf edəcək. Böyük İmam İslam respublikasına rəhbərlik etdiyi səmərəli on ilində bütün səyini xalqın birliyinə və həmrəyliyinə yönəltmişdi. Bu gün də belədir. Gərək İran xalqı və biz elə edək ki, dövlət məmurları həmrəy və yekdil olsunlar, onların arasında ixtilaf, parçalanma, dava-dalaş və Bəni-İsrail bəhanələri kimi yersiz iradlar olmamalıdır.

Sahibkar və fəhlələrlə görüşdə çıxışından, 2008

**İmamın həmişəyaşar yeniliyi**

Bəsicin yaradılması imamın təşəbbüsü idi. Bəsic təşkilatı ilk öncə müqəddəs məqsədlərdən və məsuliyyət hissindən ibarət idi. Onu təşkilat formasına salmaq imamın həmişəyaşar yeniliklərindən oldu. Bəzi dövlət başçıları bunun böyük iş olduğunu açıq formada bildirirdilər. Doğrudan da böyük bir iş idi və imam bunu etdi.

Fars vilayətinin Bəsic üzvlərilə görüşdə çıxışından, 2008

**İmamın xalqa Fələstin tövsiyəsi**

İmam Fələstin məsələsini daim vacib məsələ kimi vurğulayırdı. İmam öz vəsiyyətnaməsində və çıxışlarında məzlum millətlərin “ey müsəlmanlar” çağırışına əhəmiyyətli yanaşır, bütün məzlumların, eləcə də Fələstin xalqının hüquqlarını müdafiə edirdi. İmamın üsulu, xətti budur; imamın metodu, tövsiyəsi və vəsiyyəti budur. Xoşbəxtlikdən, İran xalqı və ölkə məmurları bu üsulu davam etdirdilər. Otuz ildir ki, siz İran xalqı ABŞ hegemonluğu ilə üzləşdiyiniz bütün sahələrdə qələbə çaldınız və düşməniniz məğlub oldu.

İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü tədbirində çıxışından, 2008

**İmamın hərəkatının qloballığı**

İmam hərəkatı qlobal sayır və bu inqilabın bütün müsəlman, hətta qeyri-müsəlman xalqlara məxsus olduğunu deyirdi. İmam bundan çəkinmirdi. Bu, ölkələrin daxili işlərinə qarışmaq deyil. Biz bunu etmirik. Bu, inqilabı dünənki müstəmləkəçilərin üsulu ilə ixrac etməkdən fərqli bir şeydir. Biz bu işi görmürük, belə adamlar deyilik. Bunun mənası odur ki, bu ilahi hadisənin gözəl ətri dünyaya yayılmalı, xalqlar vəzifələrinin nə olduğunu anlamalı, müsəlman xalqlar kimliklərinin necə və harada olduğunu bilməlidirlər. Bu qlobal baxışın bir nümunəsi imamın Fələstin barədə mövqeyidir. İmam açıq-aşkar buyurdu ki, İsrail bir xərçəng vəzisidir. Xərçəng vəzisini nə edirlər? Onu kəsməkdən başqa müalicə yolu varmı?! İmam heç kəsdən çəkinmirdi.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Xalqın rolu**

İmamın xəttinin əsas səciyyələrindən başqa birisi xalqın həm seçkilərdə, həm də müxtəlif ictimai məsələlərdə roludur. Seçkilərdə imamın xalqın roluna verdiyi əhəmiyyət həqiqətən möhtəşəm idi. İyirminci əsrin birinci yarısı müxtəlf inqilablar dövrüdür. Dünyanın şərqində və qərbində müxtəlif formalarda çoxlu inqilablar baş vermişdir. Bu inqilabların heç birində qələbədən iki ay sonra hakimiyyət növünü və quruluşu seçmək üçün referendum keçirilməmişdir. Amma imamın səyi nəticəsində İranda bu baş verdi. Hələ inqilabdan bir il ötməmişdi ki, konstitusiya yazıldı və qəbul olundu. İlk aylarda, hələ konstitusiyanın yazılmadığı və işin gecikdiyi zaman imam bizi çağırdı və biz Quma getdik. Onda hələ Qumda yaşayırdı. O narahat şəkildə dedi ki, konstitusiyanı tez yazın. Sonra Dini Ekspertlər Məclisinin seçkiləri keçirildi və xalq konstitusiya yazmaq üçün ekspertlər seçdilər. Konstitusiya yazılandan sonra onu ümumi səsverməyə çıxardı, referendum keçirildi və xalq konstitusiyaya səs verdi. Sonra da prezident və parlament seçkiləri keçirildi. Tehranın bombalar altında olduğu ən çətin dövrdə də seçkilər tətil olmadı. Bu günə qədər İranda seçkilər bir gün də təxirə düşməmişdir. Dünyada belə demokratiya görmüsünüzmü? İnqilablar heç, amma demokratik ölkələrdə də belə diqqətlə, vaxtında seçki keçirilmir. Bu, imamın xəttidir.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Yolunu azmışların hidayəti üçün maksimum səy**

İmam vəsiyyətnaməsində daxildə cinayət törədib xaricə qaçmış kommunistlərə müraciət edir. Orada imamın danışıq tonuna diqqət yetirin. İmam onlara deyir ki, ölkəyə qayıdın, qanunun və ədalətin sizə verəcəyi cəzanı qəbul edin; yəni özünüzü ilahi əzabdan xilas etmək üçün gəlin edamı, həbsi, yaxud digər cəzaları qəbul edin. Onlarla qayğıkeşliklə danışır, buyurur ki, gəlib cəzanızı çəkmək cəsarətiniz yoxdursa, ən azı orada yolunuzu dəyişin və tövbə edin, İran xalqı və İslam quruluşu ilə mübarizə aparmayın, istismarçı və hegemonların piyadası olmayın.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**İslam Respublikasında ən mühüm məsələ**

İslam Respublikasında ən mühüm məsələ dünyada özünü müxtəlif formalarda göstərən hegemon qüvvələrlə mübarizədir. Diktator və avtoritar hökumət yalnız şah hökuməti deyil. Bu, diktatura rejimlərindən biridir. O zaman bəzi ölkələrdə təkpartiyalı diktatorluq olan solçu diktatorluqlar vardı. Onlar xalqa qarşı istədiklərini edirdilər və heç kim xalq qarşısında cavabdehlik daşımırdı. Əslində xalq məhdud bir azlığın əlində dustağa çevrilmişdi. Bu da bir növ diktatorluq idi. Bir növ diktatorluq da zahirdə demokrat olan liberal-demokratik quruluşlarda görünən kapitalistlərin diktatorluğudur. Bu da bir növ diktatorluqdur, lakin çox ağıllı və dolayı diktatorluq. Bu, kapitalistlərin və multimilyarderlərin diktatorluğudur. İmam İslam Respublikasını bu bəşəri tağutların qarşısında yaratdı, xalqa, xalqın iradə və istəyinə arxalanan İslamiyyəti bu quruluşun əsas meyarı seçdi. Odur ki, İslam Respublikası həm respublikadır, yəni xalqın iradəsini əks etdirir, həm də İslam quruluşudur, yəni ilahi şəriətə əsaslanır. Bu yeni bir modeldir. İmamın xəttində əsas meyarlardan biri budur.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Nur kəlamı**

Bacardıqları qədər İslam respublikası məsələsinə qarşı çıxdılar. Deyirdilər ki, respublika olması yetər, daha İslamı nə gərək var?! Deyirdilər ki, demokratik respublika olsun, İslam respublikası olmasın. Ən yaxşıları İslam demokratik respublikası olmasını təklif edirdilər. Xalqımız isə bu təklifi qəbul etməyib dedi ki, biz İslamın da nə olduğunu bilirik, respublikanın da, demokratiya isə tarix boyu don dəyişib, hazırda şərqdə demokratiyanın mənası başqadır, qərbdə başqa; Əflatun bir şey deyirdi, Ərəstu başqa bir şey. Biz bilmədiyimiz sözü niyə danışaq?! Bildiyimiz İslamdır, onun nə olduğunu bilirik. Yəni bilirik ki, ədalətli quruluşdur...

Respublikanın mənasını da anlayırıq: xalq səs verməlidir. Bunlarla razıyıq, amma demokratiyanı hətta İslamın yanına qoysalar belə, qəbul etmirik.

Ona görə ki, bu, İslamı təhqir etmək deməkdir. Onu İslamın yanına qoyanda belə çıxır ki, İslam demokratik deyil, halbuki o, bütün demokratiyalardan üstündür. Bu səbəbdən biz bununla razılaşmırıq...

Sanki deyirlər: “İslam Ədalət Respublikası”. Bu, İslama təhqirdir. Ona görə ki, ədalət İslamın məğzidir.

İmam Xomeyninin amerikalı professor Alqara müsahibəsindən, 1980

**İmamın yolundan yayınmaq**

İmamın fikirlərini inkar etmək yanlış işdir. Təəssüf ki, bu fikrə bəzən özləri imamın düşüncələrini yayanlardan, yaxud onun ardıcıllarından olanlar rəvac verirlər. İndi hər hansı səbəbdən yollar ayrılır, məqsədlər itir, bəziləri dönürlər. Bəzi adamlar uzun illər imam və bu məqsədlər uğrunda danışdıqdan və hərəkət etdikdən sonra bu məqsəd və əsaslara qarşı çıxır, əleyhinə danışırlar.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**İmamın yolu olmasa...**

Bəlli yolu və xətti olmayan imam nəfəsi və hidayəti ilə İran xalqının özünü və övladlarını ölümə yollayan, candan, maldan keçməyə və müasir dövrün ən böyük hərəkətinə hazırlayan imam deyil. Bəlli xətti olmayan imam kimliksiz imamdır. İmamdan kimliyini almaq ona xidmət deyil. İmamın əsasları aydın əsaslardır. Bu əsaslar imamın sözlərində, çıxışlarında, məktublarında, xüsusən də sözügedən mövqelərin xülasəsi olan vəsiyyətnaməsində əks olunmuşdur. Bu düşüncə əsasları dünyada Qərb soyğunçuları və Amerika quldurları əleyhinə əzəmətli və güclü etiraz dalğası yaradan amildir. Amerikanın müxtəlif prezidentləri Asiyanın, Orta Şərqin və hətta bəzi Avropa ölkələrinin hansına səfər edirsə, insanlar toplaşıb onların əleyhinə şüar verirlər. Siz elə bilirsiniz həmişə belə olmuşdur? Xeyr! Hegemonluğu və sionizmi rüsvay edən, xalqlarda, xüsusən də müsəlman cəmiyyətlərində müqavimət ruhu oyadan amil imamın hərəkəti, ifşası və mövqeyi idi.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**İmamın mövqeyini açıq söyləmək**

Onun-bunun xoşuna gəlməkdən ötrü imamın bəzi həqiqi mövqelərini inkar etmək, yaxud gizlətmək olmaz. Bəzi adamlar yanlış olaraq belə düşünürlər ki, imamın tərəfdarlarının çoxalmasından və müxaliflərinin də onu sevməsindən ötrü biz onun bəzi açıq mövqelərini ya deməməli, yaxud az deməliyik. Xeyr! İmamın kimliyi və şəxsiyyəti özünün açıq şəkildə və aydın sözlərlə bəyan etdiyi fikirləri ilə tanınır. Dünyanı silkələdən bunlardır; böyük kütlələri İran xalqına müştaq və çoxlarını davamçı edən bu açıq mövqelərdir. Bu gün sizin İslam dünyasının müxtəlif yerlərində əlamətlərini gördüyünüz bu möhtəşəm qlobal hərəkat bu fikirlərlə başlandı.

İmamı aydın şəkildə tanıtdırmaq, onun hegemonluq, mürtəcelik, Qərbin liberal-demokratiyası, münafiq və ikiüzlülər əleyhinə fikirlərini açıq şəkildə ortaya qoymaq lazımdır. O böyük şəxsiyyətin təsiri altına düşənlər bu mövqeləri görüb təsirlənmişlər. Biz kimlərinsə imamdan xoşu gəlsin deyə onun mövqelərini gizlədə, yaxud fikrimizcə sərt olanları yumşalda bilmərik. Bizim gənclik dövrümüzdə bəzi adamlar İslamın tərəfdarlarını artırmaq üçün onun bəzi hökmlərini gizlədir və görməzliyə vururdular; qisas hökmünü, cihad hökmünü, hicab hökmünü inkar edir və gizlədirdilər; deyirdilər ki, bunlar İslamdan deyil; qisas İslamdan deyil, cihad İslamdan deyil. Məqsəd filan şərqşünasın, yaxud İslamın əsasları ilə düşmən olan bir adamın İslamdan xoşu gəlməsi idi. Bu səhvdir. İslamı olduğu kimi bəyan etmək lazımdır.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**İmamın yolunu düzgün açıqlamaq**

İmamın fikirləri açıq-aydın, özünün dediyi və yazdığı şəkildə izah olunmalıdır. Bu, imamın yolunun, xəttinin və inqilabın düzgün istiqamətinin meyarıdır. Bir nəfər açıqca deyir ki, mən imamı qəbul etmirəm. Bu başqa bir mövzudur. İmamın ardıcıllarının və tərəfdarlarının imamı qəbul etmədiyini və yolunu səhv saydığını açıq söyləyən şəxsə münasibəti bəllidir. Amma bu inqilab imamın xətti və yolu ilə getməlidirsə, onun yolu aydın olmalı və fikirləri düzgün izah edilməlidir.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

## İkinci fəsil: İmamın rəftarı

### İmamın ayıqlığı və dözümlülüyü

Bizim böyük imamımızı və şücaətli xalqımızı bu böyük mübarizə yolunda müvəffəq edən amil ayıqlıq və dözümlülük idi – ayıqlıqla yanaşı olan müqavimət. Əmirəlmöminin (ə) buyurmuşdur: “Bu bayraq yalnız ayıq və dözümlü şəxslər tərəfindən yüksələr”.[3] Bunun səbəbi odur ki, bu gün xalis küfrlə və xalis şirklə mübarizə yoxdur ki, məsələ aydın və sıralar bir-birindən ayrı olsun. Bu gün mübarizə nifaqla, ikiüzlülüklə, hiylə ilə, dünyanın hər bir yerində hegemonluğun mikrofonlarından ucalan puç şüarlarla, yalanlarla və boş sözlərlədir. Çoxları insan hüquqlarından dəm vurur və yalan sözlər deyirlər. Çoxları İslamdan dəm vurur və yalan danışırlar. Onların İslamı hegemon başçıların istədiyi İslamdır. Çoxları insanların bərabərliyindən danışırdılar, danışırlar və yalan deyirlər. Buna əsasən, indiki dövrdə mübarizə çətin mübarizədir; həm hegemonluğun gücünə və maddi imkanlarına görə, həm də hegemonluğun və müttəfiqlərinin yalanlarını və nifaqlarını ört-basdır edən təbliğat gücünə görə.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından, 1996

[3] Nəhcül-bəlağə, xütbə: 173

**İnqilabın tam gerçəkləşməsi üçün dirəniş**

Bir gün imama dedilər ki, əgər siz bu hərəkatı davam etdirsəniz, Qum Elmi Hövzəsini tətil edəcəklər. Burada söhbət candan getmirdi ki, imam "mənim canımı alsınlar, bunun əhəmiyyəti yoxdur" - desin. Çoxları canlarından keçməyə hazırdırlar, lakin "sizin bu addımınızla Qum Elmi Hövzəsinin tətil edilməsi mümkündür" - desələr, geri çəkilərlər. Lakin imam qorxmadı, yolu dəyişmədi və irəliyə getdi. Bir gün imama dedilər ki, əgər bu yolu davam etdirsəniz, bütün böyük alimləri və təqlid müctəhidlərini sizin əleyhinizə təhrik edə bilərlər; yəni İslam dünyasında ixtilaf yaranar. Burada çoxları geri çəkilər, lakin imam geri çəkilmədi, yolu davam etdirdi və inqilabın qələbəsinə nail oldu.

Bir gün imam Şəhid Behiştidən soruşdu ki, xalq mənim haqqımda nə deyir? Şəhid cavab verdi: “Deyirlər ki, sizə eşq olsun!" İmam buyurdu: “And olsun Allaha, əgər fikirləri dəyşsə və hamısı dönüb "Xomeyniyə ölüm olsun” desə də, mən öz haqq yolumdan dönmərəm”.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından, 1991

**İmamın sadə həyat tərzi**

O özünə heç bir şey istəmirdi. Onun gözündə ən əziz insan yeganə oğlu Hacı Əhməd idi. Dəfələrlə imamdan eşitmişdik ki, deyirdi mənə ən əziz adam odur. Amma 10 il rəhbərliyi dövründə ona bir ev almadı. Biz dəfələrlə gedib görmüşdük ki, imamın ən əzizi onun hüseyniyyəsinin arxasında yerləşən bağçadakı iki-üç otaqda yaşayır. O böyük şəxs özü üçün dünya ehtiyatı istəmirdi, hətta ona gətirilən hədiyyələri belə Allah yolunda verirdi; beytulmala aid olmayan şəxsi pullarını ümumi işlərə sərf edirdi. Şəxsi pulundan 10-15 milyon tümənlə oğluna normal bir ev almayan şəxs öz hesabından 100 milyonları ölkənin inkişafına, yoxsullara, seldən zərər çəkənlərə verirdi. Bizim bundan xəbərimiz var idi. Bu pullar imamı sevənlər tərəfindən ona verilmişdi.

Tehranda cümə xütbəsindən, 1999

**Nur kəlamı**

Çörək mağazasının önündə bir ruhanini bir parça çörək yeyərkən gördüm. O, deyirdi: “Mənə “əmmaməni götür” dedilər, mən də götürüb birinə verdim ki, özünə iki köynək tikdirsin. İndi də çörəyimi yeyib doydum, axşama qədər Allah kərimdir”.

Oğlum! İnan ki, mən bu hissləri dünyada heç nəyə dəyişmərəm...

Oğlum! Daha məndən keçib, lakin sən gənclik nemətinə və iradə qüvvəsinə sahibsən. Ümid edirəm salehlər yolunun yolçusu olasan. Bu o demək deyil ki, özünü cəmiyyətdən təcrid edə və xalqa xidmətdən çəkinəsən. Bu, zahirən dindar cahillərin və fırıldaqçı dərvişlərin xüsusiyyətidir.

İmam Xomeyninin oğlu Hacı Seyid Əhmədə irfani məktubundan, 1985

**Nizam-intizam və qanun**

İmam üçün mühüm olan üçüncü məsələ nizam-intizam və qanun idi. Buna görə hətta inqilab qələbə çalmazdan öncə hökumət təyin etdi. Dünya inqilablarının, yaxud inqilab adı ilə baş verən çevrilişlərin - ötən əsrin ortaları belə çevrilişlərlə doludur - heç biri belə deyildi. Bir ölkədə inqilab, yaxud çevriliş baş verəndə uzun müddət hökumətdən, dövlət təşkilatlarından və nizam-intizamdan xəbər olmurdu. İnqilabın başçıları adlanan bir qrup ölkəni idarə və istədiklərini edirdilər. İslam inqilabında imam buna imkan vermədi. Nizam-intizamın yaranmasından ötrü hətta inqilabın qələbəsindən qabaq hökumət təyin etdi. O vaxt İnqilab Şurası olsa da, imam ölkəni qanuni və məntiqli formada idarə etmək istədi və ölkədə hansı quruluşun yaranmasını referendumun öhdəsinə buraxdı. Dünyada bunun da analoqu yox idi.

İmam Xomeyninin müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından, 2001

**Sabit prinsiplər**

Bizim imamımızın böyük məharəti bu inqilab üçün möhkəm çərçivə yaratması idi. O bu inqilabın istismarçı siyasi güc və cərəyanlarda həzm olmasına imkan vermədi. İmamın təlimlərinin və göstərdiyi xəttin xalqın ağzına saldığı “nə şərqçi, nə qərbçi, İslam Respublikası”, yaxud “istiqlaliyyət, azadlıq, İslam Respublikası” şüarlarının mənası bu idi ki, bu inqilab nə Şərqin ozamankı sosializm düşərgəsinin prinsiplərinə, nə də Qərb düşərgəsinin liberal kapiralizm prinsiplərinə bağlı olan əsas və sabit prinsiplərə söykənir. Şərqin və Qərbin bu inqilaba düşmən olmasının səbəbi də budur.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışından, 2002

**Nur kəlamı**

Xalqımız ayıq, öhdəçi, müsəlman xalqdır və onun bir daha İslama qarşı olan xarici ölkələrinin əks-təbliğatlarının təsirinə düşməsi imkansızdır. Ümid edirəm bizə və İslam respublikasına qarşı yönəlmiş əks-təbliğatlar başqa xalqlara da təsir etməsin. Düşmənlər bu inqilabın başqa yerlərə yayılma qorxusundan əl-ayağa düşmüşlər. Ümidvaram xalqlar ayılıb bilsinlər ki, bunların təbliğatları İslamı burada boğmaq, nə şərqçi, nə qərbçi İslamın başqa yerlərə sızmasına mane olmaq üçündür.

İmam Xomeyninin Pakistanın İmamiyyə təşkilatının üzvlərilə görüşdə çıxışından, 1981

**İmamın İslam yoluna qurban olması**

Bu quruluşun legitimliyi İslam düşüncəsinə və İslam əsasında qurulduğuna görədir; parlamentin və rəhbərin legitimliyi də belədir. İmam deyird: "Əgər İslamdan üz çevirsəm, xalq məni də vəzifəmdən kənarlaşdırar". Doğru da deyirdi. Xalq imamı İslam dini ilə tanıdı, bizim hamımız İslam uğrunda böyük fədakarlıqlarına görə onun ardınca getdik. Biz bu yoldan yayınsaq, özümüz ziyan çəkərik, bu hərəkat dayanmaz. Həqiqətən, İslam quruluşu bizdən və bizim kimilərdən asılı deyil. Bir vaxtlar imam "İslam quruluşu məndən asılı deyil" deyəndə biz çox təəccüb edirdik. Çünki bu inqilabın banisi və rəhbəri imam idi. İmamın qalması ilə inqilabın qalmasını bir-birindən ayırmaq bizim üçün həqiqətən, çətin idi. İmam isə tam əminliklə deyirdi ki, xeyr, İslam quruluşu məndən asılı deyil. O qədər əzəmətli imamın varlığı bu quruluşun yaşaması üçün şərt deyilsə, o olmasa da xalq bu inqilabı qoruyursa, daha mənim kimilər necə deyə bilərlər ki, İslam və quruluş mənə bağlıdır?! Xeyr, bizim kimi yüzlərlə insan İslama qurban olmalı, quruluşun yaşamasından və möhkəmlənməsindən ötrü canımızı, malımızı, hörmətimizi verməliyik.

İslami Şura Məclisinin deputatları ilə görüşdə çıxışından, 2010

**İmamın məntiqi**

Bizim böyük İmamımızın məntiqi ağıl məntiqi, fikir məntiqi, aydın əməl məntiqi, insaniyyət, insani norma, insani əxlaq və əxlaqi dəyərlər məntiqi idi. Dünya bunu istəyir. İslam oyanışının nümayəndəsi bütün dünya ilə, hətta mömin və müsəlmanlarla da qaşqabaqlı çöhrə ilə üz-üzə gələn şəxs deyil; bəzilərini kafir elan edən, bəzilərini millətçiliklə, bəzilərini tayfabazlıqla, bəzilərini bəhanələrlə hücuma məruz qoyan şəxslər deyillər.

Dövlət məmurları və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışından, 2005

**Nəticənin yox, vəzifənin əmr olunması**

İmam birinci gündən buyurdu ki, biz vəzifəmizə əməl etməyə əmr olunmuşuq, nəticəyə yox. Bu, ixlasın son həddidir. Bu zaman iş yalnız Allahdan ötrü həyata keçir, belə bir qəlbdə zərrə qədər də hakimiyyət istəyi və maddi maraq olmur. İmam üzərinə düşən vəzifəni yerinə yetirdi, Allah da ona nəticə bağışladı: imamın səsi bütün dünyanı dolaşdı. Biz o zaman nə beynəlxalq təbliğat aparmağı bacarırdıq, nə də inqilabın və yeri quruluşun uyğun imkanları vardı. Lakin bununla yanaşı kim İslam dünyasının və hətta digər yerlərin hansı nöqtəsinə qədəm qoyurdusa, orada imamın nəfəsinin, adının və xatirəsinin yaşadığını görürdü. Allah-Taala gözəl sözə belə bərəkət verir və onu inkişaf etdirir.

Qum əhalisi ilə ümumi görüşdəki çıxışından, 2006

**Nur kəlamı**

Biz maddi məsələləri meyar seçməməli, qələbə və məğlubiyyəti də təbii və maddi meyarlarla ölçməməliyik. İlahi meyarları seçib qələbə və məğlubiyyəti də onlara əsasən təyin etməliyik. Biz ilahi müstəvidə və düzgün insani yolda qələbə çalsaq, bütün dünya bizi məhv etmək istəsə də qalibik. Çünki meyar təbii meyar deyil. Bu təbii aləm varlığın çöküntüsüdür. Aləmlər olduqca çoxdur. Biz də oradan gəlib oraya qayıdacağıq. Meyar oradır, o yoldur. İnsanın bir insan olaraq qələbə və məğlubiyyət meyarı o yoldur.

İmam Xomeyninin Dövlət Şurasının və İslami Şura Məclisinin üzvləri ilə görüşdə çıxışından, 1980

**Müstəqillik və azadlıq neməti**

İmamın bizim xalqımıza və ölkəmizə bəxş etdiyi nemət həyati və tarixi bir nemətdir. Bu dəyərli nemət və ehtiyat bizim siyasi müstəqilliyimiz, milli özünəinamımız, mədəni-ideoloji özünəinamımız, xalqımızın güclü imanı, düşmənin təhdidləri qarşısında xalqımızın və məmurlarımızın cəsarəti, onların tərif və tamahlandırmalarına aldanmamalarıdır. Bunlar imamımızın on il ərzində öz isti nəfəsi, öz üsulu və yolu ilə bizim xalqımıza verdiyi dərslərdir.

Ölkəmizin fəzası bu dəyərli dərslərlə doludur. Biz bu neməti məhv etməməli və satmamalıyıq. Biz bu dəyərli neməti passiv saxlamamalı, eyni zamanda gündəlik siyasi işlərimizdə xərcləməməliyik. Biz onu çox diqqətlə qorumalı, bu dəyərli sərvətdən bəhrələnərək ölkəmizin gələcəyini və tariximizi qurmalıyıq.

İmam Xomeyninin vəfatının on yeddinci ildönümü tədbirində çıxışından, 2006

**İlahi yardıma inam**

Bizim böyük imamımızın uğurunun əsas səbəbi budur ki, bir Quran ayəsinə bütün vücudu ilə iman gətirib bütün səyi ilə onun naminə çalışdı. Quranın bu şərafətli ayəsində deyilir: “Əgər Allaha (Allahın dininə və Peyğəmbərinə) yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm (möhkəm, qüvvətli) edər”[4]. Həmçinin digər ayələrdə də deyilmişdir ki, Allaha yardım etsəniz, Allah da sizə yardım edər; Allah yolunda bir addım atsanız, Allah sizi onlarla və yüzlərlə addım irəliyə salar. Bu bir qayda və Allahın qanunudur. Allaha yardım etmək Onun dininə yardım etmək deməkdir. Allahın dini isə yalnız murdar-təmizdən və dinin zahiri əməllərindən ibarət deyil. Allahın dini insanın dünya və axirətdə xoşbəxtliyinə dair proqramdır.

İmam Xomeyninin vəfatının on yeddinci ildönümü tədbirində çıxışından, 2006

---

[4] Məhəmməd/7

**İmamın rəftarında cəsarət və ağlın sintezi**

İslam inqilabının mahiyyətində aydın şəkildə danışa biləcəyimiz amil cəsarət və ağlın sintezindən ibarətdir. İmam da bunun tam tərənnümü idi. İslam inqilabında heç vaxt gözübağlı iş görülməmişdir və görülmür. İslam quruluşunda əvvəldən indiyə kimi belə proqramlar olmayıb, bu gün də yoxdur, Allahın köməyi ilə heç bundan sonra da olmaz. Gözlərimizi bağlayıb, qılıncı başımız üzərində fırlatmaq bizlərdə olmayıb. Açıq göz və tədbirlə, amma qorxmadan, Allah-Taalanın mömin və iradəli bir xalqa bəxş etdiyi qüvvəni düzgün anlamaqla və müxtəlif taktika və üsullarla şəraitə uyğun hərəkət edirik.

Dövlət məmurları ilə görüşdə çıxışından, 2006

**İmamın ruhunun tükənməz ilahi mənbəyə birləşməsi**

Bizim böyük imamımız bu şərafətli ayənin nümunəsi idi: “Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (Allah ürəklərdə) bir sevgi yaradacaq”. Məqsədi İlahi məqsəd, rəftarı imanlı rəftar, əməlləri isə saleh idi. Bu səbəbdən, İslam cəmiyyətinin düşüncə mühitində belə bir varlığın ölüm-qalımı yoxdur. Necə ki ilahi peyğəmbər və övliyaların cisimləri olmasa da, həqiqi kimlikləri yaşayır. Maddi rəhbərləri isə müxtəlif hiylələrlə ürəklərdə yaşatmaq istəsələr də, alınmır. Unudulmasın deyə SSRİ lideri Leninin meyitini mumyalasalar da, qalmadı. Mumyalanan dəyərsiz cisim oldu, düşüncəsi, üsulları və xatirəsi isə həm öz ölkəsində, həm də bütün dünyada məhvə məhkum oldu.

Mənəvi rəhbərliyin özəlliyi budur. Bunun səbəbi isə əsl qüdrət mənbəyinə birləşmək, Allahla mənəvi əlaqədə olmaq, hər şeyi Ondan bilib, bütün işləri Onun üçün etməkdir. Allah adamlarının qüdrət, əbədilik və nüfuz sirri budur. Bu baxış tərzi və bu əsaslarla imam həmişə yaşayacaq. Onun düşmənləri, müxalifləri, dini və siyasi düşmənləri getdilər və gedəcəklər. Böyük İmamsa düşüncəsi, kimliyi və həqiqi vücudu ilə İslam cəmiyyətində və böyük bəşər toplumunda yaşayır, günü-gündən daha da güclənir və daha çox hiss olunur. Bizim böyük imamımızın mənəvi gücünün sirri budur.

İmam Xomeyninin vəfatının on səkkizinci ildönümü tədbirində çıxışından, 2007

**İmamın sözlərində əsl hikmət**

İmamın hər sözü hikmət idi. Allah ona rəhmət etsin! O, çıxışında dinləyicilərə deyirdi ki, görün xalq Taliqani ağanın dəfnində nə dedi? Dedilər ki, ey Peyğəmbərimizin naibi, yerin boş qaldı. Onlar Peyğəmbərin naibinə matəm saxlayırdılar: Peyğəmbər naibliyi, din alimi. İmam xalqın sözlərindən bu nəticəni çıxarır və bizə başa salır.

Dövlət məmurları ilə görüşdə çıxışından, 2008

**İmamın fikirlərinin doğruluğu**

Həmin dönəmdə bir qrup dayaz baxışlı və yaxıngörən insan - mən onları tanıyırdım, pis insanlar deyildilər - deyirdilər ki, imam cavanları meydana çıxarmaqla yaxşı gənclərimizin qanlarının tökülməsinə səbəb olur. Elə düşünürdülər ki, imam bu gənclərin canlarının təhlükədə olduğunu bilmir. Ona urəkləri yanırdı. Bu düşüncə düzgün proqnozun olmamasından irəli gəlirdi. Bəli, düzdür, biz məcburi muharibədə çoxlu şəhid verdik, nə qədər insan muharibə əlili oldu, nə qədər ailə matəmə qərq oldu. Bu, böyük bədəldir, amma nəyə qarşılıq olaraq? Əvəzində ölkənin müstəqilliyini, İslam bayrağını, İslam kimliyini böyük fırtınadan qoruduq.

Qum əhalisi ilə görüşdə çıxışından, 2009

**Başucalığının tərənnümü**

Bizim böyük imamımız başucalığının tərənnümü idi. İmam aşkar şəkildə "Amerika heç bir qələt eləyə bilməz" deyəndə dünyada Amerikanın siyasi və hərbi iqtidarının zirvə çağı idi. İmam bu xalqa başucalığı hissini qaytardı; inqilab İran xalqına başucalığı hissini qaytardı. Bu gün iranlı özünün iranlı və müsəlman olması ilə fəxr edir. Bu gün dünya gücləri də etiraf edirlər ki, onların İran xalqına qarşı təhdidinin, hərbi və siyasi təbliğat kampaniyasının heç bir təsiri yoxdur. İran xalqı seçdiyi yolu qüdrətlə gedəcək və məqsədinə çatacaq.

Sənəndəc şəhərinin Azadlıq meydanında Kürdüstan vilayəti əhalisi ilə görüşdəki çıxışından, 2009

**İmamın misilsiz şəxsiyyəti**

İslam quruluşu qurulanda, böyük, cəsarətli və misilsiz kişinin boğazından İslam fəryadı çıxanda birdən bütün İslam dünyasının diqqəti İslama yönəldi. Mötərizədə deyim ki, Böyük İmamımızın şəxsiyyətini İslam dünyasının islahatçı şəxsiyyətlərilə müqayisə edə bilmərik. Mən Seyid Camal və onunla olan digər böyük islahatçıların həyatları ilə tanışam. Onların heç biri bu böyük insanla, Allahın lütfü nəticəsində eyni dövrdə yaşadığımız bu əziz imamla müqayisəedilləsi deyil. O, cəsarətlə, açıq şəkildə və başucalığı ilə İslamdan danışdı. Bu gün siz İslam ölkələrində hansı universitetə getsəniz, ali təhsilli gənclərdə və tələbələrdə İslama eşq və rəğbət görərsiniz. Bunlar çox rahatlıqla kommunistlərin, ateist cərəyanlarının təsiri altına düşənlər idilər. Bu gün bu təmayüllər minimuma enib, baxış İslama yönəlib.

Kürdüstan vilayətinin şiə və sünni ruhanilərilə görüşdə çıxışından, 2009

**Əsl inqilab müəllimi**

İmam həqiqətən, bir əxlaq müəllimi idi. Bu qədər möhtəşəm və böyük bir hadisə baş verdi, o saat küçələrdə xalqın ruhiyyəsində bunun təsiri göründü və imam dərdi hiss edib dərhal dərmanını verdi: "Xürrəmşəhri Allah azad etdi". Bunun mənası o idi ki, bu qədər çətinlik görmüş, bu qədər əziyyət çəkmiş komandirlər - biz bu Beytülmüqəddəs əməliyyatında çoxlu böyük şəhidlər verdik - bütün bu zəhmətlərə və bu böyük qələbəyə görə qürurlanmasınlar, hakimiyyətin başında oturan siyasilər bu sahədə yaranmış böyük qələbəyə görə məğrur olmasınlar: "(Ey Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı".[5]

Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından, 2009

---

[5] Ənfal/17

**İmamın cəsarəti**

Məncə, İmama müxtəlif qələbələri bəxş edən amillərdən biri onun cəsarəti idi. Bu amil ona elmi, siyasi, ictimai qələbələri və xalqın çox böyük rəğbətini bəxş etdi. O, heç nədən çəkinmədi. Hər halda, fitnəkarlar istəyirlər ki, aparıcı elita Allahdan yox, onlardan qorxsun. "O kəslər ki, xalq onlara: “Camaat sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!” - dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: “Allah bizə bəs edər. O nə gözəl vəkildir!” – deyə cavab verdilər". Nəticəsi də budur: “Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər”. Belə cəsarətə sahib olmaq lazımdır.

İslami Şura Məclisinin deputatları ilə görüşdə çıxışından, 2009

**Hesablamalarda mənəvi amillər**

İmamın xəttində və rəftarında çox mühüm olan başqa bir meyar mənəvi və ilahi məsələləri nəzərə almaqdır. İmam öz qərarlarında, işlərində mənəvi məsələlərə birinci dərəcəli əhəmiyyət verirdi. Bu nə deməkdir? Yəni görmək istədiyi hər bir işdə insanın məqsədi birinci növbədə Allahın razılığını qazanmaq olsun, qələbə çalmaq, hakimiyyətə gəlmək və kimlərinsə yanında hörmətli olmaq yox. Birinci məqsəd Allahın razılığı olmalıdır. Bu bir məsələ. Sonra da Allahın vədinə inansın, etimad etsin. İnsanın məqsədi Allahın razılığı olanda ilahi vədə də inanır. O zaman daha məyusluğun, qorxunun, diqqətsizliyin və qürurun mənası olmur.

İmam yalqız olanda qorxuya düşmədi, məyus olmadı. İran xalqı hamılıqla bir səslə onun adını çəkəndə, hətta digər xalqlar da ona eşq bəsləyəndə və bunu bildirəndə də qürurlanmadı. Xürrəmşəhr iraqlı təcavüzkarlar tərəfindən alınanda imam məyus, bizim əsgərlərimiz öz qəhrəmanlığı və fədakarlığı ilə onu azad edəndə də məğrur olmadı, buyurdu ki, Xürrəmşəhri Allah azad etdi; yəni biz heçkimik. Rəhbərliyi zamanı baş verən bütün müxtəlif hadisələrdə imam belə idi. Yalqız olanda qorxmadı, hakimiyyətdə olanda məğrur olmadı və heç nəyi unutmadı. Bu, Allaha etimaddır. Allahın razılığı olanda belə olur.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Nur kəlamı**

İslamda meyar Allahın razılığıdır, başqalarının yox. Biz şəxsiyyətləri haqla ölçürük, haqqı şəxsiyyətlərlə deyil. Meyar haqq və həqiqətdir.

İmam Xomeyninin İngiltərənin “Guardian” qəzetinə müsahibəsiindən, 1978

**İmamın cazibə və dafiəsi**

İmamın proqramında, xəttində və düzgün yolunda başqa bir meyar onun cazibə və dafiə məsələsidir. Böyük insanların cazibə və daifəsi geniş sahəni əhatə edir. Bu hamıda var. Öz rəftarınızla biri sizi sevir, biri isə sizdən inciyir. Bu, cazibə və dafiədir. Böyük insanların cazibə və dafiəsi isə böyük bir sahəyə şamil olur.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

## Üçüncü fəsil: İmam, İslam və inqilab yolu

### Dinamik fiqh

Böyük İmam özü sürgündə olduğu dövrdən Şiə fiqhini ictimai fiqhə, hökumət fiqhinə, xalqları idarə etmək, onların kiçik və böyük məsələlərinə cavab vermək istəyən fiqhə yönəltdi. Bu, qeyd etdyimiz qapalılıq təhlükəsinin qarşı tərəfidir. Hətta Böyük İmamın səmərəli ömrünün sonlarında zahirən xırda görünən, lakin Şiə fəqihlərinə bir xətt və istiqamət göstərməsi baxımından böyük əhəmiyyət kəsb edən məsələlər qarşıya çıxdı və o yenə də göstərdi ki, cəmiyyəti idarə etmək, bir xalqı, yaxud insanların və xalqların böyük bir qismini idarə etmək istəyən fiqh dövrün şərtlərini bilməli, qarşıya çıxan hər bir ehtiyaca cavab verməli, siyasi, iqtisadi, mədəni və digər sahələrdə cavabsız məsələ qoymamalıdır.

Həzrət İmam Xomeyninin müqəddəs məqbərəsinin ziyarətçilərinin izdihamlı toplantısında çıxışından, 1997

**Nur kəlamı**

Gördüyünüz kimi, Şiə fiqhi dünyada ən zəngin fiqhdir. Bu zəngin fiqh Şiə alimlərinin zəhməti sayəsində yazılmış və şərh olunmuş bir qanundur. Dünyada heç bir hüquq İslam fiqhi qədər zəngin deyil...

Ən zəngin fiqh Şiə fiqhidir. Dünyada belə bir fiqh yoxdur - nə müsəlmanlar arasında və nə qeyri müsəlmanlarda. Bu, Şiə alimlərinin üzücü məşəqqətləri sayəsində ərsəyə gəlib.

İmam Xomeyninin oğlu Mustafanın şəhadəti münasibətilə bəyanatından, 1978

**İmamın yolunda İslam məqsədi**

İmamın buyurduğu İslama iki sahədə nəzər salmaq olar. Biri quruluş formasında olan İslamdır. İmam burada çox tələbkar idi, nə bir kəlmə artığa, nə də bir kəlmə əskiyə razı olurdu. İqtisadi və ya digər məsələlərdə heç bir güzəştə getmirdi. Hər yerdə İslamın sözü üzərində dayanırdı; İslam quruluşu, İslam Şurası Məclisi, İslam hökuməti, İslam məhkəməsi və müxtəlif orqanlar İslam xəttini və İslam hakimiyyətinin yolunu izləməli idilər. İmam bacardığı qədər buna çalışdı.

İslama sadiqliyə dair ikinci sahə insanların fərdi əməlidir. Burada daha sərtlik və qətiyyət yoxdur. Burada moizə, nəsihət, xoş söz və yaxşı işlərə dəvət var. İmam bunu uyğun görürdü. Deməli, imamın xəttində əhəmiyyət kəsb edən birinci məsələ iman və əməldə İslamın məqsədini və İslam hakimiyyətini izləməkdir.

Tehranda cümə xütbəsindən, 1999

**Xalqların xilaskarı olan əsl İslam üzərində təkid**

Bəzilərinin İslama etiqadı vardı, amma İslam quruluşunu qəbul etmirdilər. İmam çox iddialı olan bu cərəyanın qarşısında möhkəm dayanıb İslam əsasları üzərində durdu, quruluşun İslam forması üzərində ciddiliklə israr etdi. Çünki İslamla tanış olan hər bir şəxsin və bu gün bizim düşündüyümüz kimi, imam da düşünürdü ki, bir xalqın səadəti, rifahı, azadlığı, başucalığı, həmçinin ədalət və sözün həqiqi mənasında xalqa arxalanmaq məsələləri İslam hökmləri sayəsində təmin olunur. Ədalət və demokratiya şüarı ucaldanlar xalqın hüququnu və mənafeyini ədalətlə təmin edə bilmədiklərini göstərdilər. İslam isə bu işi görə bilər. Böyük İmamın İslam üzərində təkidi İslamın missiyasına güclü inam demək idi. Yəni İslam dini bu gün xalqları xilas edə bilər.

İmam Xomeyninin müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından, 2001

**İmam və İslam respublikasının quruculuğu**

İmam İslam respublikasının quruculuğunda onu möhkəmlədib həmişəyaşar edən bütün amilləri nəzərə aldı və çox məharətlə onlardan istifadə etdi. Bu əsas amillər İslam, xalq, qanunçuluq və düşmənə qarşı mübarizədən ibarət idi. Böyük İmam İranda çürük şah rejiminin yerində qurduğu möhkəm quruluşda bu amillərdən çox diqqətlə istifadə etdi, əməldə onlara sadiq qaldı, çıxış və müraciətlərində onların üzərində təkid göstərdi.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından, 2001

## Qanunların İslama uyğunluğu üzərində təkid

Biz harada uğur qazanmışıqsa, İslama əməl etməyimizdən doğmuş, harada uğursuzluqla üzləşmişiksə, İslamdan üz döndərdiyimizə görə olmuşdur. Böyük İmamın qanunlarımızın, hökumətimizin, məmurlarımızın və məhkəmə işçilərimizin rəftarının İslama uyğunluğu üzərində təkidi bundan ötrü idi. Harada uyğunsuzluq varsa, İslama diqqətsizlikdəndir. Mən bütün bu məsələlərə kompleks şəkildə baxdıqda düşmənin siyasətini, əlini, təbliğatını və psixoloji müharibəsini aydın görürəm. Bir tərəfdən, müxtəlif vasitələrlə İslam hökmlərinin icrasına mane olmağa çalışır, işlərə əngəl törətməkdən ötrü beynəlxalq miqyaslı iqtisadi təzyiq və embarqolara əl atır, digər tərəfdən də təbliğat aparırlar ki, baxın, İslam respublikası bacarmır. Bu, düşmənin psixoloji müharibəsidir.

Qum əhalisi ilə görüşdə çıxışından, 2003

**İmamın qapalılıq və sekulyarizmlə mübarizəsi**

Bizim əzəmətli imamımız İslam dünyasına göstərdi ki, İslam fiqhi - yəni xalqın idarəsinə dair qanunlar İslam fəlsəfəsinin - yəni aydın, dərin və əsaslı təfəkkürün və İslam irfanının - yəni zahidliyin, Allaha bağlanmağın və nəfsdən uzaqlaşmağın kənarında necə böyük möcüzə edə bilər. İmam əməldə siyasi İslamın elə mənəvi İslam olduğunu göstərdi. Müstəmləkə dövründə İslam düşmənləri və müsəlman xalqların oyanışını istəməyənlər mənəvi və əxlaqi İslamın siyasi İslamdan ayrı olduğunu təbliğ edirdilər. Bu gün də bu təbliğatı aparırlar. Bu gün də İslam quruluşunun düşmən cəbhəsinin informasiya şəbəkələri müxtəlif üsullarla siyasi, ictimai və ədalətsevər İslamı dünyaya kobud tanıtdırmağa, xalqı təcrid olunmuş və təslimçi İslama, təcavüzkar, zalım və hegemon qarşısında heç bir reaksiya verməyən İslama sövq etməyə çalışırlar.

İmam İslam haqda bu yalançı təsəvvürü rədd edib əsl İslamı ortaya qoydu. İmamın ortaya qoyduğu əsl İslam qapalı və xurafatçı İslama, həmçinin əcnəbi və eklektik məktəblər qarşısında rəngini itirmiş İslama zidd idi. Siyasəti mənəviyyatdan ayırmaq həm o zaman, həm İslam quruluşu uğrunda mübarizə illərində, həm də ondan sonra bu günə qədər İslama düşmən cəbhənin təkidlə dayandığı məsələlərdən biridir. Yəni kimsə müsəlman olmaq istəyirsə, başını tutub bir küncdə oturmalı, düşmənin, təcavüzkarın və işğalçının nə etdiyinə fikir verməməlidir. Bu gün də bunu təbliğ edirlər. İmam İslam dünyasında bunun əksini ortaya qoydu və bu gün İslam dünyası öz daxilində bu möhtəşəm dalğaya malikdir.

İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin vəfatının on dördüncü ildönümü tədbirində çıxışından, 2003

**İmamın məktəbində mənəviyyatla siyasətin sintezi**

İmamın siyasi məktəbinin öz indeksləri vardır. Onların biri mənəviyyatın siyasətlə birgəliyidir. İmamın siyasi məktəbində mənəviyyat siyasətdən ayrı deyil; siyasət və irfan, siyasət və əxlaq. Öz siyasi məktəbinin təcəssümü olan imam siyasət və mənəviyyata birgə malik idi və onlarla birgə məşğul olurdu. Hətta imamın siyasi mübarizələrində də ən əsas amil onun mənəviyyatı idi. İmamın bütün mövqe və rəftarı Allaha və mənəviyyata əsaslanırdı.

Bizim böyük imamımızın siyasi məktəbində İslamdan alınmış demokratiya həqiqi demokratiyadır, Amerika və Qərb demokratiyası kimi şüar verib xalqı aldatmaq və çaşdırmaq deyil. Xalq öz iradəsi, istəyi və inamı ilə yolunu seçir, öz məmurlarını seçir. Məhz buna görə imam inqilabın qələbəsindən iki ay ötməmiş quruluşun növünü ümumxalq referendumuna çıxardı.

İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışından, 2004

**Din və siyasət İmamın baxışında**

Bizim böyük imamımızın məktəbinin əsas qayəsi din və dünyanın əlaqəsidir. Buna din və siyasət, din və həyat da deyirlər. İmam din və dünyanın əlaqəsi məsələsində İslamın fikrini əsas götürürdü. İslam dünyanı kamillik yolunda insanın aləti hesab edir. İslama görə dünya axirət tarlasıdır. Dünya nədir? Bu baxış və bu ifadəyə görə, dünya insan və dünyadan ibarətdir. İnsanların həyatı, səyi, ağıl və biliyi, insanların hüquqları, vəzifələri, ölkələrin siyasəti, iqtisadiyyatı, tərbiyə və ədalət sahəsi - bütün bunlar həyat sahələridir. Bu mənada dünya dini məsuliyyət, vəzifə və missiyadır.

İmam bizi dünyaya əsir olmaqdan da çəkindirirdi. Dini siyasət, iqtisadiyyat və dünya ilə bir bilən imamımız xalqı və məmurları bu mənada olan dünyadan çəkindirirdi.

İmam Xomeyninin vəfatının on altıncı ildönümü mərasimində çıxışından, 2005

**Nur kəlamı**

Allahın rəsulu dini siyasətin təməlinə çevirmişdi. Allahın rəsulu dövlət və siyasi mərkəzlər qurmuşdu.

Erkən İslam çağında qurulan siyasət beynəlxalq siyasət idi. İslam peyğəmbəri əlini dünyanın hər tərəfinə uzadıb, İslama, İslam siyasəti və dövləti qurmağa dəvət edirdi.

İmam Xomeyninin dövlət məmurları və ordu rəhbərləri ilə görüşdə çıxışından, 1983

**İmamn yolunu davam etdirmək**

Böyük imamımızla bağladığımız əhd-peyman onun yolunu davam etdirmək və məqsədlərinə çatmaq üçün səy göstərməkdir. Biz imamı yalnız adı və işi ilə fəxr etməkdən ötrü istəmir, yalnız İslam Respublikasının bəzəyi hesab etmirik. Bunlardan daha üstün və daha mühüm məsələ budur ki, imam bizi bir yola yönəltdi, qarşımıza məqsədlər qoydu, yolu itirməmək üçün bizə meyarlar göstərdi. Biz yalnız bu yolla getdikdə gözəl həyata nail ola və onu dada bilərik. Biz bununla cəmiyyətimizdən və xalqımızdan yoxsulluq və gerilik kabusunu uzaqlaşdıra, bəşərin qədim arzusu olan ədaləti həyata keçirə, müsəlman xalqların təhqirinə son qoya, hegemon güclərin tamahını yaltaqlıqla və rəzilliklə yox, qüdrətlə özümüzdən dəf edə bilərik. Biz bununla əxlaqı, təqvanı və imanı həm öz fərdi rəftarlarımıza, həm də ölkənin ümumi proqramlarına hakim edə, Allahın böyük neməti olan azadlığı bütün faydaları ilə birgə qazana bilərik. Bunlar imamın məqsədləridir. İmamın hərəkəti, inqilabı və yaratdığı quruluş bu məqsədləri həyata keçirməkdən ötrüdür. Deməli, imamın yolu iman, ədalət, maddi inkişaf və şərəf yoludur. Biz bu yolu davam etdirməyi əhd etmişik və Allahın yardımı ilə davam etdirəcəyik. İmam bizim qarşımızda bu yolu açdı, bu məqsədləri bizə başa saldı.

İmam Xomeyninin vəfatının on altıncı ildönümü mərasimində çıxışından, 2005

**İmam və yeni kimlik**

Böyük İmam siyasi təlatüm dolu dünyada yeni bir kimlik yarada bildi. Bu, İslam quruluşu kimliyi idi. İran xalqı bu quruluşu yarada və qoruya bildi. Bu, yalnız İran xalqına məxsus olmayan İslami və milli kimlik idi. İslami kimlik bütün İslam ümmətinə aiddir. Böyük İmam İran xalqının iradəsi ilə bunu yaradıb yaşada bildi.

İmamın yaratdığı yeni kimlik dünyada heyrətlə qarşılandı. Məcburi muharibədə davam gətirib qələbə çaldığı gün bir daha dünyanı heyrətləndirdi. Nüvə texnologiyasında və başqa elmi məsələlərdə bacarığını subuta yetirdiyi gün bir daha düşüncə sahiblərinin diqqətini cəlb etdi.

İmam Xomeyninin vəfatının on səkkizinci ildönümü mərasimində çıxışından, 2007

**Nur kəlamı**

Quruluşu qorumaq şəriət və ağıl baxımından vacib işlərdəndir. Bu mənada quruluş istəməyib, “hamımız bir cür və qayda-qanunsız çalışmaq istəyirik” deyən şəxslər, Qurana, İslama və ölkənin mənafeyinə zidd hərəkət edirlər. Düşmənlər xaricdə oturub bizə gülürlər ki, bunları aldadıb bir-birinin canına salmışıq. Onlar xaricdə oturb bizə gülürlər ki, partiyaları bir-birinin canına salmışıq.

İmam Xomeyninin Hərbi Hava Qüvvələrinin zabitlərilə görüşdə çıxışından, 1980

**İmam Əlinin yolunun davamı**

Ölkə daxilində ədalət şüarını ciddiyə almaq lazımdır; dindarlıq şüarını, həzrət Əli yolunu ciddiyə almaq lazımdır. Bizə İran xalqının böyük amallarına çatmaqda yardım edən amil budur. İslam cəmiyyətinin inkişafına və həyatına bağlı məsələlərdə imamın xususiyyətləri həzrət Əliyə bənzəyirdi; əlbəttə, o uca zirvənin adi insanlarla müəyyən məsafəsini nəzərə alaraq. Bizim böyük imamımız haqq və ədalət yolunda kimlərdənsə qorxan, kimlərisə nəzərə alan, kimlərdənsə çəkinən və ya geri çəkilən, zəiflik göstərən insan deyildi. Necə ki, həzrət Əli buyurmuşdu: “Hidayət yolunda tərəfdarlarının azlığına görə qorxmayın!” O, yalqızlıqdan qorxmurdu, tək qalmaqdan vahiməyə düşmürdü; haqq onunladırsa, demək Allah da onunladır. Mubarizliklə hərəkət etdi, Allah-Taala da İran xalqını və bütün müsəlman xalqları mənəvi və fiziki baxımdan ona qoşdu. Və siz hansı möhtəşəmliyin yarandığını gördünüz. İmam belə idi.

İmam Əlinin doğum günü münasibətilə çıxışından, 2007

**İmam Hüseyn hərəkatı**

Müsəlman xalq Hüseynin adını və xatirəsini yaşatsa, onu özünə örnək seçsə, bütün maneə və problemlərini aradan qaldıra bilər. Məhz buna görə bizdə İslam inqilabında, İslam respublikasında yuxarıdan-aşağıya qədər hamı - xalq, məmurlar, böyük şəxsiyyətlər və imamın özü haqlı olaraq, İmam Hüseyn, Aşura və ümumxalq əzadarlıqları üzərində dayandılar. Bu əzadarlıqlar simvolik və həqiqi cəhətə malikdir, ürəkləri yaxınlaşdırıb İslam təlimlərini aydınlaşdırır.

Qum əhalisi ilə görüşdə çıxışından, 2008

**İnqilabın yayılması proqnozu**

İmam vəsiyyətnaməsində elan edir ki, bu inqilab yayılıb İslam dünyasında müstəmləkəçilərin istismarına son qoyacaq. Bu, Böyük İmamın proqnozudur. Bu gün baxdıqda bunun baş verdiyini görürük. İmama görə, bəzi inqilabların əksinə olaraq, İslam inqilabı digər ölkələrə iğtişaş törətməklə, ordu yeritməklə və terrorçuluqla yayılmayacaq. Xalqlar arasında inqilabı yaymaq İslam Respublikası quruluşunu örnək göstərmək yolu ilə həyata keçir. Yəni İran xalqı İslam Respublikası quruluşunu elə bir səviyyəyə və dərəcəyə çatdırsın ki, digər xalqlar ona baxıb həvəslənsinlər və onu istəsinlər. Bu, İslam təlimlərini təbliğ etmək, İslam dünyasının məzlum təbəqələrini və hegemonluğun zülmü altında tapdanan məzlum müsəlman xalqları müdafiə etməkdə açıq mövqe yolu ilə həyata keçir. İslam quruluşunun yayılması budur və bu baş vermişdir.

İmamın vəsiyyətnaməsində mövcud olan, onun səmərəli ömrünün on ili ərzində çıxışlarında toxunduğu və bizim xalqımız və gənclərimiz üçün mühüm olan üçüncü məsələ budur ki, İslam inqilabı xalqın inkişafına və yaradıcılığına kömək edir. İslam düşmənləri uzun illər bunun əksini təbliğ edirdilər. İslam düşmənləri belə gösətərməyə çalışırdılar ki, dindarlıq inkişafla ziddiyyət təşkil edir və uyğun gəlmir. Bir xalq inkişaf etmək istəyirsə, dindən əl çəkməli, Qərbin yanında durub özünü başdan-ayağa onların rənginə salmalı və inkişaf etməlidir. Uzun illər bunu İran xalqına bir inam kimi aşılamışdılar. Bizim böyük imamımız inqilabın əvvəlindən son günə qədər və həmçinin öz

vəsiyyətnaməsində təkid edir ki, inqilabi ruh irəliyə doğru hərəkət, inkişaf və yaradıcılıq amilidir. Bu amil İran xalqında yarandı.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışından, 2008

**İmamın vəsiyyətnaməsini daim diqqətdə saxlamaq**

İmam sözü və rəftarı ilə öz ümmətinə - biz xalqa davamlı bir hidayət əlaməti qoyub getdi. İmamın sözləri həyatın bütün döngələrində bizi yönəldir. İmamın ən güclü və ən yaxşı mənəvi irslərindən biri onun vəsiyyətnaməsidir. Yaxşı olar ki, xalq, müxtəlif məmurlar və gənclər zaman-zaman bu vəsiyyətnaməni yenidən öyrənib araşdırsınlar. Mən bu gün bu möhtəşəm toplantı münasibəti ilə və sizin qəlblərinizin ayıq olduğuna görə imamın dərin məzmunlu vəsiyyətnaməsinin bir neçə məqamına toxunacağam.

İmam öz vəsiyyətnaməsində deyir ki, bu inqilab ilahi inqilabdır və onun əsas dayağı xalqdır. Yəni bu inqilab xalqa məxsusdur. Bu sözün mənası odur ki, heç kim, heç bir təbəqə, heç bir fərd və heç bir qrup bu inqilabın sahibi olduğunu deyə, özünü ona sahib, digərlərini isə borclu saya bilməz və bilməməlidir. Əgər kimsə özünü bu inqilabın sahibi bilməli olsaydı, hamıdan münasib və layiqli olan imamın özü idi. İnqilab onun iradəsi və şəxsiyyəti hesabına baş verdi, amma o özünü heçkim və Allahı yeganə səbəbkar bilirdi.

İmamın vəsiyyəti budur ki, bizim gəncimiz, xalqımız və müxtəlif nəsillərimiz realist gözlə baxsınlar. Əsas məsələ inqilabdır. İnsanlar əsas deyillər. İnqilabçılıq özünün inqilabla rabitəsini, əməlini və sadiqliyini qorumaqla mümkündür.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışından, 2008

**İmamın inqilabda öncüllüyü**

Bizim inqilabımızda da Böyük İmamın özü bu yola inanan birinci şəxs idi. Onun qəlbi bu yola və bu məqsədə imanla dolu idi, nə iş gördüyünü bilir, işin əzəmətini dərk edir, şərtlərini də anlayırdı. Bu işin birinci şərti Allaha təvəkkül edib bu yolda möhkəm dayanmaq idi və o da möhkəm dayandı. Bu xalqın gəncləri də ondan ilham alıb möhkəm dayandılar. Bu dözüm və təmkin bulağı aşıb-daşanda bütün xalqı əhatə etdi.

Həzrət Peyğəmbərin (s) Məbəs bayramı münasibəti ilə quruluşun məsul işçiləri ilə görüşdə çıxışından, 2008

**İnqilabın inkişafının şərti**

İmamın söz və tövsiyələrinin yetirməsi olan bu böyük xalqımızın inkişaf və tərəqqinin zirvəsinə doğru gedən yolu bütün sahələrdə bu milli başucalığını qorumaqdan ibarətdir. Bu xalq tərəqqi zirvəsinə ucala bilər. Bir xalq güclənəndə, maddi və mənəvi cəhətdən yüksələndə onun təhlükəsizliyi də tam təmin olunur; yəni təhlükələr aradan qalxır və düşmənlər ona tamah salmırlar. Əgər bizim xalqımız tam təhlükəsiz olmaq, düşmənlərin daha onu təhdid etməyə cürət göstərməməsini istəyirsə, həmin yolla getməlidir; əgər inkişaf və ədalət istəyirsə, həmin yolla getməlidir. Bizim ölkəmiz üçün böyük təhlükə xalqdan, İslam dəyərlərindən və imamın mübarək xəttindən ayrılmaqdır. Bunlar bizim ölkəmiz üçün təhlükəlidir. Əgər inqilabın yaratdığı bu güclü skelet qorunsa, zaman ötdükcə müxtəlif problemlərin çoxunu həll etmək olar. Bu güclü skeletin dağılmasına qoymayın. Əgər dağılsa, daha heç bir yara sağalmayacaq, işdən düşən heç bir hissə düzəlməyəcək. İslam quruluşunun imamın bizə öyrətdiyi güclü skeletinin qorumalıyıq.

İmam Xomeyninin vəfatının iyirminci ildönümü mərasimində çıxışından, 2009

**İslamın dirçəlişi**

Bizim böyük imamımız ölkəmizdə və İslam dünyasında yaratdığı bu əzəmətli hərəkatda həqiqətən iki bayrağı ucaltdı və yüksəkdə saxladı: bir bayraq İslamın dirçəlişi, bu əzəmətli və tükənməz gücü fəallaşdırmaq bayrağı, ikinci bayraq isə İranın və iranlının izzət və şərəf bayrağıdır. Bizim böyük imamımız qüdrətli əlləri ilə bu iki bayrağı ucaltdı. İmamın dəvətinin və hərəkatının bir cəhətini təşkil edən birinci bayraq böyük İslam ümmətinə aiddir. İkinci bayraq da İran xalqına, İrana və iranlıya aid olsa da, İslamın həyatverici rolunun əməli təcrübəsi kimi İslam ümməti üçün ümidverici və hərəkət oyadandır. Çünki bu böyük hərəkat İranda İslam oyanışının və İslamın həyata keçməsinin əməli təcrübəsi idi. Buna əsasən, birbaş İrana və iranlıya aid olsa da, onun nəticəsi yenə də İslam ümməti üçün dəyərli və əhəmiyyətlidir.

İmam bizim xalqımızda bu inamı yaratdı ki, duruş gətirə, müqavimət göstərə, ölkəsini azad edə, özünün yaratdığı quruluşu çox qüdrətlə qoruya, dünyaya və beynəlxalq siyasətə təsir göstərə bilər. Və elə də oldu.

İmam Xomeyninin vəfatının iyirminci ildönümü mərasimində çıxışından, 2009

**İmamın vəsiyyətnaməsi – İnqilabın əsası**

Əsl məsələ inqilabın əsaslarıdır. İnqilabın əsaslarını təkrar etmək lazımdır, unutmayın. İmamın fikirlərinə şübhə yaradacaq sözlər danışmaq düzgün deyil. İmamın vəsiyyətnaməsi, sözlərinin məğzi inqilabımızın əsasları və prinsipləridir. İmam böyük və ayıq insan idi. Siz bunları daim diqqətdə saxlayın. Qanun, mövqe və hərəkət bu əsasla olmalıdır. Ola bilsin biri bir cür başa düşsün, başqası bir cür - bunun eybi yoxdur. Amma məqsəd və meyar bu olmalıdır.

İslami Şura Məclisinin deputatları ilə görüşdə çıxışından, 2009

**İnqilabın məqsədlərinin təsviri**

Bu gün inqilabın hərəkət və məqsədləri bizim böyük və hikmətli imamızın ilk gündə təsvir etdikləridir. Bu məqsədlər xalqın fitrətinə uyğun olduğuna görə xalq onu götürdü. Əks təqdirdə, milyonlarla insanın qəlbini bir işə yönəltmək asan iş deyil. Bir şəxs fitrətlə danışdıqda, Allahdan danışdıqda, fitrətlər ona sarı yönəlir: "Əgər sən yer üzündə nə varsa, hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi".[6] Qəlbləri yönəldən Allahın qüdrətidir.

Bu necə hadisədir ki, zaman onu söndürmür və hətta günbəgün daha da qabardır - Kərbəla hadisəsi kimi! O zaman dostların olmadığı və düşmənlə dolu olan quru səhrada Hüseyn ibn Əli (ə) və yoldaşları şəhid olurlar, ailəsi əsir edilir, onları aparırlar və iş bitir. On-on beş gün ərzində bütün əlamətləri itməli olan həmin hadisə görün əsrlər ötdükdən sonra bu gün nə qədər parlayır. Yalnız müxtəlif ölkələrdə yaşayan milyonlarla şiə arasında yox, yalnız müsəlmanların arasında yox, hətta qeyri-müsəlmanların arasında da Hüseyn ibn Əlinin (ə) adı günəş kimi parlayır, qəlblərə işıq saçır və yol göstərir. İnqilab da belədir. Bu inqilab zaman ötdükcə daha çox işıq saçmışdır.

Azərbaycan əhalisi ilə görüşdə çıxışından, 2010

---

[6] Ənfal/63

**Meyar insanların hazırkı mövqeyidir!**

İmam dəfələrlə buyurdu ki, şəxslər haqda mühakimə üçün onların indiki vəziyyəti meyar seçilməlidir, keçmişi deyil. İndiki vəziyyət bəlli olmayanda keçmişə baxılır. İnsan keçmişə baxıb deyir ki, əvvəl belə olub, indi də yəqin belədir. Əgər insanların indiki halı keçmişdəkinin əksinə olsa, daha keçmişin etibarı yoxdur.

Bəziləri Parisdən İrana imamla bir təyyarədə gəldilər, amma elə onun dövründə xəyanətə görə edam olundular. Bəzi adamlar imamın Nəcəfdə olduğu və sonra Parisə getdiyi zamandan onunla əlaqədə idilər, inqilabın əvvəlində imam onlara hörmət də edirdi. Amma sonra rəftar və mövqeləri səbəbindən onlardan üz çevirdi və vəzifələrindən kənarlaşdırdı. Meyar bugünkü vəziyyətdir. Əgər Allah eləməmiş, əmmarə nəfs və şeytan mənim yolumu yayındırsa, mühakimə ayrı cür olacaq. İslam quruluşunun əsası budur və imam belə etdi.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Əsl Məhəmməd (s) İslamı**

İmamın fikirlərində birinci və ən əsas amil əsl Məhəmməd (s) İslamı məsələsidir; yəni zülmlə barışmayan, ədalətsevər, mübariz, məzlum, məhrum və yoxsulların hüququnun müdafiəçisi olan İslam. İmam bu İslama qarşılıq olaraq bizim siyasi leksikonumuza "Amerika İslamı" terminini daxil etdi. Amerika İslamı formal İslam, zülm və məzlumların hüququna təcavüz qarşısında laqeyd qalan, hegemonlara və güclülərə kömək edən, onların hamısı ilə razılaşan İslamdır. İmam bu İslama belə ad qoydu: "Amerika İslamı".

Bizim böyük imamımız daim əsl İslam haqda düşünürdü. Bu yalnız İslam Respublikası dövrünə məxsus deyildi, lakin İslam hakimiyyəti və İslam quruluşu olmadan əsl İslamın həyata keçməsi imkansız idi. Əgər ölkənin siyasi quruluşu İslam şəriətinə və təfəkkürünə əsaslanmasa, İslamın dünyanın və bir cəmiyyətin zalım və hegemonları ilə həqiqi mübarizəsi mümkün deyil. Buna görə imam İslam Respublikasını qorumağı ən vacib iş bilirdi; ən vaciblərdən biri yox, ən vacib iş. Çünki həqiqi İslamı qorumaq İslamın siyasi quruluşunu qorumaqdan asılıdır. Siyasi quruluş olmadan mümkün deyil.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

## Dördüncü fəsil: İmamın məktəbində düşməni tanıma

### Məktəb meyarı

İmamın heç kimlə şəxsi ədavəti yox idi. Şəxsi kin-küdurəti olsaydı da, ona göz yumurdu. Amma məktəbdən ötrü düşmənlik imam üçün çox ciddi məsələ idi. 1962-ci ildə hərəkat başlayanda xalqın arasında mövcud olan müxtəlif düşüncəli insanlara belə qucaq açan, hər bir milliyyətdən, hər bir qrup və məzhəbdən olan insanları qəbul edən imam inqilabın əvvəlində bəzi qrupları özündən uzaqlaşdırdı. Kommunistləri açıq şəkildə kənarlaşdırdı. İmamın bu işi inqilabın əvvəlindən mübarizədə olan bizlərin çoxuna qəribə görünürdü. İmam inqilabın əvvəllərində kommunistlərin qarşısında açıq mövqe bildirdi, onları özündən ayırdı, liberalların, Qərb quruluşlarını və Qərb mədəniyyətini istəyənlərin qarşısında qətiyyət göstərdi, onları da özündən ayırdı. O bu işdə heç bir şeyi nəzərə almadı, heç nədən çəkinmədi. İlahi həqiqətləri və İslam hökmlərinin Quran ruhunu qəbul etmək və böyük dəyişikliyi qəbul etmək istəməyən mürtəceləri də özündən kənarlaşdırdı. İmam mürtəceləri dəfələrlə ağır və acı sözlərlə qınadı. İmam özünün İslam əsasları və İslam düşüncəsi dairəsində olmayanları uzaqlaşdırmaqda zaman gözləmədi. Halbuki onlarla şəxsi düşmənliyi yox idi.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**İmamın baxışında doğma və özgə**

İmamı, onun yolunu və vəsiyyətnaməsini qəbul edən şəxs doğmadır. Ölkənin müstəqiiliyinə əhəmiyyətli yanaşan, ona sadiq qalan doğmadır. Xalqın inkişafını və başucalığını rəhbər tutan şəxs doğmadır. Özgələr Amerika işğalına müştaq olanlardır. Onlar evdə oturduqları halda oğrulara işləyir və xeyir verirlər. Düşmənin məqsəd və fikirlərinə tribunalıq edənlər özgələrdir. Bu xalqın sözünü deyən, bu xalqın dilindən danışan, bu xalqın düşmənlərinə düşmən olan və hər hansı sahədə onun mənafeyi istiqamətində addım atan şəxs İslam respublikasının əsgəridir. Sözdə və əməldə bilərəkdən birliyi pozan, düşmən istiqamətində hərəkət edən şəxs İslam respublikası ilə qarşı-qarşıya gəlmiş olur. Əlbəttə, doğmalar ehtiyatlı olsunlar, diqqətsizlik etməsinlər. Bəzən doğmalar nadanlıq və diqqətsizlik üzündən, çox nadir hallarda da namərdlik üzündən şəxsi kinlərin təsiri altına düşür və özgələrin işlərini görürlər. Belə şəxslər ayıq olsunlar.

İmam Xomeyninin vəfatının on yeddinci ildönümü tədbirində çıxışından, 2006

**İmamın hegemonizm ruhiyyəsini tanıması**

İmam böyük gücləri yaxşı tanımışdı, işğalçı və təcavüzkar qüvvələrlə yalvararaq danışmağın mümkün olmadığını bilirdi. Siz onlara yalvardıqca, geriyə çəkildikcə, yumşaq davrandıqca işğalçı təbiətlərindən irəli gələrək onlar da sizi daha ciddi hədələyir, daha qəzəbli jest tutur və bir az da irəliyə gəlirlər. Haqqı möhkəm dayanaraq almaq lazımdır. Xalqımız müstəqillik haqqını aldı, başucalığını təmin etdi, sərhədlərində əmin-amanlıq yaratdı, bu möhkəm duruşun və mubarizənin nəticəsində ölkədə səbatlı dövlət qurub qüdrət hissi keçirdi.

İmam Xomeyninin vəfatının on səkkizinci ildönümü tədbirində çıxışından, 2007

**Nur kəlamı**

Allah-Taala bir surədə Peyğəmbərə buyurur ki, əmr olunduğun işlərdə möhkəm ol. Hud surəsində də buyurur ki, əmr olunduğun işlərdə möhkəm ol və sənə iman gətirənlər də möhkəm olsunlar. Bu dünyada özlərinin, xalqlarının və İslamın şərəfi üçün çalışanlar işlərində möhkəm olsalar, müxtəlif hadisələrdən qorxmasalar, öz məqsədlərinə nail olarlar.

İmam Xomeyninin şəhid ailələrilə görüşdə çıxışından, 1981

**İmamın düşməni tanıması**

Allah imamımıza rəhmət etsin! O, buyururdu ki, düşmənin təhqirindən və düşmənçiliyindən qorxmayın. O sizinlə kobud danışır, üz turşudur və təhqir edirsə, bilin ki, yaxşı bir işiniz onu narahat edib. Onun sizi tərifləməsindən qorxın. Düşmən sizi tərifləyirsə, demək, onun xeyrinə nəsə etmisiniz. Bizim düşmənimiz kimin hakimiyyətə gəlməsini, parlamentdə və hökumətdə olmasını istəmirsə, demək, o şəxs ölkənin xeyrinə çalışır və həmin yerlərdə olması lazımdır. Düşmən hökumətdə və ya qanunverici orqanda kimin təmsil olunmasını istəyirsə, o şəxs olmamalıdır, çünki düşmənin istədiyi işi görəcək.

Xalqın müxtəlif təbəqələrinin nümayəndələrilə görüşdə çıxışından, 2008

**Hegemonizmə qarşı dirəniş**

Beynəlxalq istismarçılar və hegemon qüvvələr tarix boyu həmişə olmuşlar, lakin elm və sənayenin inkişafı və modern rabitə imkanları səbəbindən bu gün bu istismar asanlaşmışdır. Bəs bu quldurluğun qarşısında necə hərəkət etmək lazımdır? İmam muqaviməti tövsiyə edirdi. Xoşbətlikdən, bu gün ölkəmizin müxtəlif siyasi təşkilatları imamın xəttinə vəfalı qaldıqlarını deyirlər. Bu, yaxşı haldır. Keçmişdə bəzi dövrlərdə belə deyildi. Bəzi siyasi cərəyanlar açıq formada imamın xəttindən üz çevirdiklərini bildirirdilər. Bu gün xoşbəxtlikdən, ölkəmizdə bütün siysi təşkilatlar imamın fikirlərindən və xəttindən danışırlar. Lap yaxşı! İmamın xəttində mövcud olan, vəsiyyətnaməsində və bütün çıxışlarında əks etdirdiyi əsas məsələlərdən biri hegemon və tamahkarlar qarşısında qətiyyətli müqavimətdir.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışından, 2008

**İmamın soyuq muharibə ilə bağlı xəbərdarlığı**

Düşmən aciz qalanda psixoloji müharibəyə əl atır, xalqları məyus etməyə və həvəsdən salmağa çalışır. Onlar psixoloji müharibə ilə və təhdidlə qarşılarındakı xalqları meydandan çıxarmağa çalışırlar. Bu o deməkdir ki, bu xalqın qarşısında əməli müqavimət gücləri yoxdur. Bu psoxoloji müharibə inqilabın ilk günlərindən otuz il ötən bu günə qədər davam edir. Bəzən deyirdilər ki, bu inqilab iki aydan artıq yaşamayacaq, bəzən deyirdilər ki, iki ildən artıq qalmayacaq. İndi otuz ildir bu inqilab çox qüdrətlə irəliləmiş, İran xalqını günbəgün daha yekdil, daha ümidli və enerjili etmişdir.

Bu gün soyuq və psixoloji muharibəni müxtəlif şəkillərdə aparırlar. İranlı gənci və İran xalqını inandırmaq istəyirlər ki, istismarçı güclərlə əlaqəniz olmadan siz heç bir şeyə nail ola bilməzsiniz. Bu, böyük təhlükədir və imam bunu duyurdu.

İmam gənclərə, universitetlərə, elm hövzələrinə xəbərdarlıq verdi ki, ayıq olsunlar. Gəncləri aldadıb ruhdan salmaq xalqı geridə saxlamaq deməkdir. Bütün xalq məsuliyyət hiss etməli və məmurlar böyük cihad olan bu yolda çox çalışmalıdırlar.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışından, 2008

**İmamla düşmənliyin bitməməsi**

İslam inqilabı ilə başlayan bu əzəmətli hərəkət bitmiş bir hərəkət deyil; əsla bitmiş deyil, davam edir. İndi çıxışlarda, televiziyada, təbliğatda, məhkəmədə "yumşaq müharibə" sözü hamının dilinə düşüb. Bu doğru sözdür. Bu bir həqiqətdir. Yəni indi müharibə gedir. Əlbəttə, bu sözü mən bu gün demirəm. Müharibədən sonra - 88-ci ildən həmişə dəfələrlə bunu demişəm. Səbəb budur ki, mən səhnəni görürəm. Kimsə görmürsə, mən nə edim?! Mən səhnəni görürəm, təchizatı görürəm, sıraları görürəm, nifrət və qəzəblə açılan ağızları görürəm, inqilab əleyhinə, imam əleyhinə, bütün bu amalların və bu hərəkətə könül verən bütün şəxslərin əleyhinə qeyzlə sıxılmış dişləri görürəm. İnsan bunları görür, nə etsin?! Bu bitməyib və bitmədiyinə görə hamının üzərinə vəzifə düşür.

Şairlərlə görüşdə çıxışından, 2009

**İmamın hegemonizm qarşısında qüdrəti**

Tarixin həqiqətən müstəsna şəxsiyyəti olan böyük imamımız bunların hamısının qarşısında dedi: “Nə qədər təxribat hazırlasanız, öz zərərinizə bitəcək; İslam Respublikası geri çəkilməyəcək və Amerika heç bir qələt edə bilməyəcək”. İslam Respublikası heç bir dövlətdən utanıb-çəkinmir, əli ölkənin böyük maddi və insani qaynaqlarından kəsilən və bacardığı qədər təxribat aparan isə ABŞ dövləti idi. ABŞ dövləti İslam Respublikası quruluşu və İran xalqı əleyhinə otuz il təxribat aparmış, zərbə vurmuş, müxtəlif tədbirlər düşünmüş və bacardığı hər bir işi görmüşdür. Elə bir iş yoxdur ki, siz amerikalıların bacardığını, lakin etmədiyini düşünəsiniz. Onlar mümkün olan hər bir işi görmüşlər.

13 Aban (4 noyabr) ərəfəsində şagirdlərlə görüşdə çıxışından, 2009

**İmamın üz döndərdiyi şəxslərin aqibəti**

İnqilab, imam və İslam üçün çalışan şəxs onun sözünün və hərəkətinin bu prinsiplər əleyhinə bir istiqamətin yaranmasına bais olduğunu görən kimi cəld ayılmalıdır. Nə üçün ayılmırlar? İslam Respublikasının ən əsas şüarı olan "İstiqlaliyyət, Azadlıq, İslam Respublikası" şüarından "İslam" sözünün çıxarıldığını eşidən kimi özlərinə gəlməli, getdikləri yolun səhv olduğunu bilməli və kənara çəkilməlidirlər. Fələstinin xeyrinə və işğalçı sionizm rejiminin əleyhinə olan Qüds günündə işğalçı sionizm rejiminin xeyrinə və Fələstinin əleyhinə şüar verildiyini gördükdə ayılıb özlərini kənara çəkməli və deməlidirlər ki, xeyr, biz biz bu cərəyanla deyilik. Dünyanın zalım və hegemon başçılarının, həm indi, həm də son 100-200 illik tarixdə zülmün tərənnümü olan ABŞ, Fransa, İngiltərə və bu kimi dövlət başçılarının bunları dəstəklədiklərini gördükdə ayılmalı və işlərində nöqsanın olduğunu anlamalıdırlar. Bütün azğın insanların – şah tərəfdarlarının, kommunistlərin, ölkədən qaçan rəqqas və sapqın müğənnilərin bunları dəstəklədiklərini gördükdə ayılmalı, gözləri açılmalı, anlamalı və işlərində nöqsanın olduğunu bilməlidirlər; dərhal dönüb deməlidirlər ki, xeyr, biz sizin dəstəyinizi istəmirik.

İnqilabın ilk onilliyində və imamın həyatı dövründə onun dostlarından və yaxınlarından olan bəzi şəxslər imamın qarşısında dayandılar, imamla mübarizəyə qalxdılar, imamı diz çökürməyə, o böyük və ilahi insanın hərəkətinin səhv olduğunu sübut etməyə cəhd etdilər, lakin sonra təcrid olundular, inqilab bunları tərk etdi. İmamın yaxınlarından, dostlarından olan bu şəxslər ya düşmənə sığındılar, ya

inqilaba qarşı çıxdılar, ya ona zərbə vurdular; bu qədər tənəzzül etdilər. Bunlar bizim hamımız üçün ibrət olmalıdır; başa düşməliyik.

Hövzə tələbələri və ruhanilərlə görüşdə çıxışından, 2009

**Düşmənlərin ad dəyişdirməsi**

İnqilabdan ötən bütün bu müddət ərzində imam və inqilabla mübarizə bayrağının altında kimlər dayandılar? O bayrağın altında İngiltərə vardı, ABŞ vardı, hegemon güclər və hegemonizmə bağlı mürtəcelər o bayrağın altına yığışmışdılar. İndi də belədir. Siz 2009 seçkilərindən öncəyə baxın, bu 7-8 ayda ABŞ harada dayanıb? İngiltərə harada dayanıb? Sionist xəbər agentlikləri harada dayanıb? Daxildəki antidin qüvvələr - kommunistlərdən tutmuş şah tərəfdarlarına və digər dinsizlərə qədər, yəni inqilabın əvvəlindən onunla və imamla düşmənçilik edənlər, daş atanlar, atəş açanlar, terror əməlləri törədənlər harada dayanıblar? İnqilabın qələbəsindən üç gün ötməmiş həmin adamlar həmin adlarla imamın iqamətgahı önündə şüar verməyə başladılar. İndi həmin adamlar küçələrdə quruluşun və inqilabın əleyhinə şüar səsləndirirlər. Heç nə dəyişməyib. Adları solçu idi, arxalarında ABŞ dururdu; adları sosialist idi, liberal, azadlıqsevər idi və arxalarında dünyanın kiçik və böyük hegemon, mürtəce və müstəbid gücləri dururdu. Bu gün də belədir. Bunlar meyardır. Əsas odur ki, xalq bu meyarları başa düşür. Bundan ötrü Allaha yüzlərlə şükür etsək də azdır.

Qum əhalisi ilə görüşdə çıxışından, 2010

**İmam heç kimə bac vermədi!**

Bəzən düşmənin çıxardığı bu oyunlar İslam Respublikasından bac almaqdan ötrü olur. İnqilabın əvvəlində də belə idi; bu gün-sabahların bəzisini ondan ötrü edirdilər ki, İslam Respublikası quruluşunu onları hakimiyyətə şərik etməyə vadar etsinlər. Halbuki buna haqları çatmır, xalq bunu istəmir və bunun ictimai dayağı da yoxdur. Bəzən belədir; bizim beynəlxalq düşmənlərimiz bu qalmaqalları yaradırlar ki, İslam Respublikasını bac verməyə məcbur etsinlər. Çoxlu dövlətlər belədir; bir təhlükə hiss edən kimi gedib böyük ərbabları qarşısında dayanır və bac ödəyirlər; pul verirlər, siyasi imtiyaz verirlər. İmam isə bac vermədi. Bunu hamı bilsin ki, biz də İran xalqı tərəfindən və öz tərəfimizdən heç kəsə bac verməyəcəyik.

Amul əhalisi ilə görüşdə çıxışından, 2010

**İmamın düşmənlərilə ittifaq və imamın yoluna sədaqət iddiası**

İmamın seçdiyi, sözlərində və əməllərində əks etdirdiyi bu üsula əsasən, insan özünü açıq şəkildə imam və İslamla mabarizə bayrağını ucaldan şəxslərlə bir cəbhədə tərif etdiyi halda, həm də imamın ardıcılı hesab edə bilməz. Qəbul etmək olmaz ki, Amerika, İngiltərə, CİA, MOSSAD, şah tərəfdarları və münafiqlər bir şəxs haqda razılığa gəlsinlər, bir mərkəz ətrafında toplaşsınlar, o şəxs və o mərkəz də imamın xəttində olduğunu iddia etsin. Belə olmaz və bu, məqbul deyil. Hər kəslə və hər əclafla blok yaratmaq olmaz. Görək imamın dünənki düşmənləri bizim qarşımızda hansı mövqeyi seçirlər. Əgər hegemon Amerikanın, işğalçı sionizmin, müxtəlif muzdurların, imamın, İslamın və inqilabın müxalif və düşmənlərinin bizi təriflədiyini, bizə hörmət etdiyini görsək, mövqeyimizə şübhə ilə yanaşmalı və düzgün yolla getmədiyimizi bilməliyik. Bu bir meyardır. İmam da dəfələrlə bunun üzərində təkid göstərirdi. İmam buyururdu ki, bizi tərifləyirlərsə, deməli, xəyanətkarıq. Bu, imamın yazılarında və dəqiq sənədlərdə mövcuddur. Bu çox mühüm məsələdir.

Bəzi adamlar imama əks xətdə hərəkət edir, Qüds günündə Fələstin məsələsinə dair bəlli mövqe seçir, Aşura günü bəlli rüsvayçılığı törədirlər, biz də imamın əsaslarına və yoluna açıq müxalif olanlarla həmrəylik nümayiş etdirir, özümüzü onların yanında göstərir, yaxud onların qarşısında sükut edirik. Eyni zamanda imamın ardıcılı olduğumuzu iddia edirik. Bu mümkün və məqbul deyil. Xalq da bunu gözəl dərk edir, görür, bilir və anlayır.

İmam Xomeyninin məqbərəsində cümə xütbəsindən, 2010

**Nur kəlamı**

İnqilabın heç bir qrupa borcu yoxdur. Biz hələ də liberallara və müxtəlif qruplara etimadımızın altını çəkirik. Ölkəyə qayıdıb xidmət etmək istəyənlərə inqilabın qucağı həmişə açıqdır, amma bütün prinsiplərə qarşı tələbkarlıqları bahasına yox ki, nə üçün “Amerikaya ölüm” deyirsiniz, nə üçün müharibə etdiniz, nə üçün münafiqlərə qarşı Allahın hökmünü icra etdiniz, nə üçün “Nə şərqçi, nə qərbçi” şüarı verirsiniz və sair.

Mən açıq şəkildə elan edirəm: Nə qədər ki, varam, hökumətin liberalların əlinə keçməsinə imkan verməyəcəyəm.

İmam Xomeyninin ölkə ruhanilərinə müraciətindən, 1989